

Milli azadlıqdan şirin nemət yoxdur!

YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

22 may 2025-ci il, cümə axşamı

№ 087 (6914)

Qiyməti 60 qəpik

# İkinci qeyri-rəsmi ZİRVƏ...

## İlham Əliyev: Bu il Azərbaycan Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşünə ev sahibliyi edəcək. Sizi Azərbaycana dəvət edirəm



Bax səh. 2

# Dost ölkələr, strateji tərəfdaşlar...

Bax səh. 3





Bax səh. 4

# Ankarada Qərbi Azərbaycana qayıdış mövzusunda beynəlxalq konfrans keçirilib

## Azərbaycan-Macarıstan iqtisadi əlaqələri sadiq tərəfdaşlıq ruhunda inkişaf edir

Azərbaycanın Mərkəzi-Şərqi Avropa regionunda ən yaxın dostlarından biri olan Macarıstanla siyasi-iqtisadi əlaqələr tarixi köklərə və mehriban dostluğa əsaslanır. Tarixin bir çox mərhələsində Macarıstan Azərbaycanla siyasi, elmi-mədəni proseslərdə ortaq mövqe sərgiləyərək etibarlı dost kimi sadiqliyini nümayiş etdirib. Respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyevin Macarıstanla əməkdaşlığa xüsusi önəm verməsi, diplomatik...

Bax səh. 3

## "Türk Dünyasının Gənc Gücü: Bir Millət, Üç Dövlət Vizyonu"

Mayın 20-də Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) ev sahibliyi ilə Yeni Azərbaycan Partiyası (YAP), Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) və ŞKTC-nin Ulusal Birlik Partiyasını (UBP) təmsil edən gənclərin iştirakı ilə "Türk Dünyasının Gənc Gücü: Bir Millət, Üç Dövlət Vizyonu" mövzusunda konfrans keçirilib.

Açılış mərasimində çıxış edən ŞKTC-nin Prezidenti Ersin Tatar Türk dünyasında əməkdaşlığın dərinləşdirilməsinin mühüm prioritet olduğunu bildirərək bu istiqamətdə...

Bax səh. 4

## AQEM-Azərbaycan platforması sahibkarlara yeni imkanlar qazandıracaq

Bakıda keçirilən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Biznes Şurasının 8-ci iclası mühüm hadisələrlə yadda qalıb. Tədbirdə iştirak edən ölkələrin nüfuzlu iqtisadi qurumları, biznes icması və şirkətlərin nümayəndələri iqtisadi, ticari və investisiya məsələləri ilə bağlı əhəmiyyətli razılaşmalar əldə ediblər. Ən mühüm tədbirlərdən...

Bax səh. 5

## Sülhə məcburetmə taktikası

2022-ci ilin fevralında Rusiyanın Ukraynaya qarşı başladığı genişmiqyaslı hərbi müdaxilə beynəlxalq münasibətlər sistemində yeni gərginlik mərhələsi yaratdı. Beynəlxalq miqyasda, xüsusilə, Qərbdə beynəlxalq hüququn pozulması kimi qiymətləndirilən bu hala cavab olaraq ABŞ, Avropa İttifaqı (Aİ), Böyük Britaniya, Kanada, Yaponiya və digər ölkələr Rusiyaya qarşı fərqli spektrlərə əsaslanan iqtisadi və siyasi sanksiyalar tətbiq etməyə başladılar. Qeyd edək ki, adıçəkilən sanksiyalar yalnız hərbi əməliyyatları dayandırmaq məqsədi daşımırdı, eyni zamanda, Rusiyanın iqtisadi imkanlarını məhdudlaşdırmağa və gələcəkdə oxşar...

Bax səh. 5

## Kim seçiləcək?

İyunun 3-də Cənubi Koreyada prezident seçkiləri keçiriləcək. Dövlət başçısı vəzifəsinə yeddi nəfərin namizədliyi qeydiyyata alınmışdı. Namizədlər "Toburo" Demokratik Partiyasının keçmiş sədri Li Çje Myon, hakim "Vətəndaş Gücü" partiyasından Kim Mun Su, İslahatlar Partiyasının rəhbəri Li Çjun Sok, Demokratik Fəhlə Partiyasından Kvon Yon Quk, Azadlıq və Birlik Partiyasından Ku Çju Va, həmçinin iki bitərəf namizəd Hvan Qyo An və Son Çjin Hodur. Lakin srağagün namizədlərdən biri - ultra-sağçı Azadlıq və Birlik Partiyasının həmsədri Ku Cu Va namizədliyini geri götürüb - o, mühafizəkar "Vətəndaş Gücü" partiyasının nümayəndəsi Kim Mun Sunu dəstəkləyəcəyini bəyan edib. Xatırladaq ki...

Bax səh. 7



# Ermənistan dilemma qarşısında..

Bax səh. 6



# Suriya "xilas oldu"...

Bax səh. 6

# İkinci qeyri-rəsmi ZİRVƏ...

## İlham Əliyev: Bu il Azərbaycan Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşünə ev sahibliyi edəcək. Sizi Azərbaycana dəvət edirəm

Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.








Macarıstanın Baş naziri Viktor Orban dövlətimizin başçısını qarşılayıb.

Prezident İlham Əliyev Zirvə görüşündə çıxış edib.

Baş naziri və dövlət başçılarını salamlayan Prezident İlham Əliyev qonaqpərvərliyə görə Viktor Orbana təşəkkürünü bildirib. Azərbaycan ilə Macarıstan arasında əlaqələrin inkişafının məmnunluq doğurduğunu bildirən dövlətimizin başçısı hər iki ölkə liderlərinin qarşılıqlı səfərlərinin müntəzəm xarakter daşıdığını söyləyib: "Bu, mənim Macarıstana 6-cı səfərimdir. Cənab Orban isə Azərbaycana 7 dəfə səfər etmişdir. Macarıstan Azərbaycanın etibarlı strateji tərəfdaşıdır.

Macarıstan müstəqil siyasət aparan ölkədir və beynəlxalq nüfuzu daim artmaqdadır. Əldə edilmiş bütün uğurlar münasibətilə Baş nazir Viktor Orbanı təbrik edirəm".

Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının keçən il Azərbaycanın təşəbbüsü ilə Şuşada ilk qeyri-rəsmi Zirvə görüşünün keçirildiyini xatırladan dövlətimizin başçısı bu təşəbbüsün davam etməsindən məmnunluq duyduğunu ifadə edib: "Şadam ki, bu təşəbbüsün davamı olaraq ikinci qeyri-rəsmi Zirvə görüşü təşkil edilir.

Prezident Sadır Japarovu Qırğızıstanın hazırda təşkilata uğurlu sədrliyinə görə təbrik edirəm".

Bu il Azərbaycanın Türk Dövlətləri Təşkilatının rəsmi Zirvə görüşünə ev sahibliyi edəcəyini söyləyən Prezident İlham Əliyev dövlət başçılarını Zirvə görüşündə iştirak etmək üçün Azərbaycana dəvət edib.

"Azərbaycan ümumilikdə təşkilatın üzv ölkələrinə 20 milyard ABŞ dollarından çox sərmayə qoymuşdur.

Bu il Türk İnvestisiya Fondunun rəsmi olaraq fəaliyyətə başlaması nəzərdə tutulur.

Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız güclənir. Son illər ərzində Azərbaycanda nəqliyyat infrastrukturuna - avtomobil yollarına, dəmir yolu xətlərinə, dəniz limanına, gəmiqayırma zavoduna, hava nəqliyyatına böyük həcmdə sərmayələr qoyulmuşdur. Nəticədə, açıq dənizlərə çıxışı olmasa da Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilmişdir" -deyən dövlətimizin başçısı bəyan edib ki, Türkiyənin və Mərkəzi Asiya dövlətlərinin Azərbaycan ərazisindən tranzit keçin daşımalarının həcmi 2024-cü ildə 11 milyon ton təşkil edib, qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaratmış, müştərək müəssisələr qurmuşuq. Prezident eləcə də vurğulayıb ki, Orta Dəhlizin bir hissəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun daşıma qabiliyyəti keçən il Azərbaycanın vəsaiti hesabına 5 milyon tona çatdırılıb:

"Orta Dəhlizin rəqəmsallaşdırılmasına böyük önəm veririk. Hazırda Xəzər dənizi limanları arasında nəqliyyat əməliyyatlarının və ticarətin sadələşdirilməsini nəzərdə tutan vahid rəqəmsal platformanın yaradılması layihəsi üzərində işlər davam etdirilir.

Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Hazırda Bakı gəmiqayırma zavodunda 10 yeni gəmi inşa edilir.

Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyəti 15 milyon tondan 25 milyon tona çatacaq.

Azərbaycanda 8 beynəlxalq hava limanı fəaliyyət göstərir. Sayca 9-cu hava limanı yaxın zamanlarda istifadəyə veriləcək. 9 beynəlxalq hava limanından 3-ü Azərbaycanın erməni işğalından azad edilmiş ərazisindədir. Həmçinin 1,5 milyon ton yük qəbuletmə imkanı olan karqo terminalı inşa edilir".

Azərbaycanda keçirilmiş COP29 konfransına toxunan dövlətimizin başçısı hazırlıq üçün az müddət qalmasına baxmayaraq, konfrans yüksək səviyyədə təşkil olunmuşdu: "Təxminən 200 ölkənin yekdil qərarı ilə 2024-cü ilin noyabr ayında Azərbaycanda COP29 kimi mötəbər konfrans keçirilmişdir. Hazırlıq üçün cəmi 11 ay vaxt olmasına baxmayaraq, COP29-u yüksək səviyyədə təşkil etməyə nail olduq.

Qeydiyyatdan keçmiş 77 min iştirakçı 197 ölkəni təmsil edirdi. Konfransda 70 dövlət və hökumət başçısı iştirak etmişdir.

Azərbaycan COP29-da Qlobal Cənubla Qlobal Şimal arasında körpü qurmağa müvəffəq oldu. Bakıda qlobal iqlim gündəliyi ilə bağlı ciddi qərarlar qəbul edildi.

Əsas nailiyyət inkişaf etməkdə olan ölkələrə maliyyə yardımının 100 milyarddan 300 milyard ABŞ dollarına qədər artırılmasını nəzərdə tutan yeni maliyyə hədəfi barədə razılaşmadır. Bundan başqa, 10 il ərzində razılıq əldə edilməsi mümkün olmayan karbon bazarlarının tənzimlənməsi barədə konsensusa nail olundu, İtki və Zərər Fondu işlək vəziyyətə gətirildi.

COP29 böyük uğurlara imza atmış və tarixə "Bakı sıçrayışı" kimi daxil olmuşdur.

COP29 zamanı Azərbaycan, Qazaxıstan və Özbəkistan dövlət başçıları tərəfindən yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq sazişi imzalanmışdır. Bu saziş ölkələrimizdə istehsal edilən yaşıl enerjinin Xəzər-Qara dəniz marşrutu ilə dünya bazarlarına ixracı üçün geniş imkanlar yaradır".

Prezident İlham Əliyev çıxışının sonunda Macarıstanı qeyri-rəsmi Zirvə görüşünün uğurlu təşkilinə görə təbrik edib və Türk Dövlətləri Təşkilatının fəaliyyətinə uğurlar arzulayıb.





# Bəyannamə imzalanıb

Mayın 21-də Macarıstanın paytaxtı Budapeştdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə Bəyannamə imzalanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev, Qırğız Respublikasının Prezidenti Sadır Japarov, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev tərəfindən imzalanmış Bəyannamə 71 bənddən ibarətdir.

Türk xalqlarının tarix boyu dünya sivilizasiyasına mühüm töhfələrini, o cümlədən Avropa və Asiyanın mədəni və siyasi cəhətdən formalaşmasında davamlı irsini, Türk dövlətlərinin dünyada müasir siyasi, iqtisadi və sosial tərəqqiyə, o cümlədən regional və qlobal sülh və təhlükəsizliyə təsir göstərməkdə mühüm rolunu vurğulayan dövlət başçıları TDT-nin təşkilatın institusional əsasını qoyan tarixi Naxçıvan Sazişinin prinsiplərinə, məqsədlərinə və ruhuna sarsılmaz sadiqliyini bir daha təsdiqləyiblər.

Türk dövlətlərinin regionda və onun hüdudlarından kənarda rolunu artıran siyasi, iqtisadi, ekoloji, sosial və mədəni nailiyyətləri təqdir edən prezidentlər "Türk Dünyası Xartiyası"nı türk xalqlarının ortaq mədəniyyətinin, adət-ənənələrinin, dilinin və tarixinin əsas ifadəsi və onların ortaq türk kimliyinin möhkəmləndirilməsi üçün birləşdirici çərçivə kimi tanıyıblar.

Qırğız Respublikasının sədrliyinin və Macarıstanın TDT-yə üzv dövlətlər arasında çoxşaxəli əməkdaşlığın daha da gücləndirilməsinə olan əzminin yüksək qiymətləndirildiyi Bəyannamədə müşahidəçi ölkə Macarıstan tərəfindən ilk dəfə keçirilən TDT-nin qeyri-rəsmi Zirvə görüşünə verilən böyük dəyər xüsusi vurğulanır.

Tərəflər Türk dövlətləri arasındakı böyük potensialdan və imkanlardan istifadə edərək, bütün sahələrdə həmrəyliyi, əməkdaşlığı və koordinasiyanı daha da gücləndirmək əzmində olduqlarını bildirir, Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi qismində təşkilatın işinə dəyərli töhfələrini alqışlayırlar. Eyni zamanda, Kipr məsələsinin danışıqlar yolu ilə, qarşılıqlı məqbul və həyat qabiliyyətli həllinə nail olunmasının zəruriliyi qeyd edilir.

Üzv dövlətlərin birliyini və həmrəyliyini pozmağa yönəlmiş hər hansı hərəkət və təhdidlərin qarşısının alınmasının vacibliyi diqqətə çatdırılır.

Təşkilatın üzvləri regionda və onun hüdudlarından kənarda sülh və təhlükəsizliyə təhdid və çağırışlar yaradan terrorizm və transmilli mütəşəkkil cinayətkarlığın bütün formaları, terrorizmin maliyyələşdirilməsi və kibercinayətkarlıqla mübarizədə birgə səyləri davam etdirməyə sadiqliklərini bir daha təsdiqləyirlər. Bu kontekstdə Suriyanın ərazi bütövlüyü və birliyi əsasında təhlükəsizliyin və sabitliyin bərqərar olması, ona qarşı sanksiyaların aradan qaldırılması istiqamətində Türkiyənin konstruktiv rolu yüksək qiymətləndirilir.

Qəzzadakı fəlakətli humanitar vəziyyətdən dərin narahatlıq ifadə olunur, daimi və hərtərəfli atəşkəs, girovların, məhbusların azad edilməsi və Qəzzaya humanitar yardımların maneəsiz çatdırılması istiqamətində danışıqlara dəstək bir daha təsdiqlənir. İsrail-Fələstin münaqişəsinin BMT-nin müvafiq qətnamələrinə uyğun olaraq ikidövlətli həlli variantının zəruriliyi qeyd edilir. Həmçinin Əfqanıstanla bağlı məsələlər üzrə TDT-nin İşçi Qrupunun yaradılması təqdir olunur.

TDT çərçivəsində müdafiə sənayesi sahəsində məhsuldar çoxtərəfli əməkdaşlığı genişləndirmək niyyəti bir daha bəyan olunur və üzv dövlətlərin müvafiq orqanlarına




bu məqsədlə səylərini sürətləndirmək tapşırılır.

İrqçiliyin, ayrı-seçkiliyin, ksenofobiyanın, İslama qarşı nifrətin, nifrət nitqinin və dezinformasiyanın bütün formaları ilə mübarizədə əməkdaşlığın davam etdirilməsi məqsədilə beynəlxalq platformalarda səylərin əlaqələndirilməsi öhdəliyi xatırladılır.

Qlobal miqyasda mədəniyyətlərarası dialoqun təşviqində qabaqcıl təşəbbüs kimi "Bakı Prosesi"nin uğuru yüksək qiymətləndirilir və Azərbaycan bu istiqamətdə davamlı liderliyinə görə təqdir edilir, 2026-cı ildə keçiriləcək VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkilinə dəstək ifadə olunur.

Türk Dövlətləri Təşkilatı Katibliyinin büdcəsinin əhəmiyyətli dərəcədə artırılması təklifi dəstəklənir, TDT-nin ilk birgə maliyyə institutu kimi yaradılmış Türk İnvestisiya Fondunun layihə fəaliyyətinə başlanmasının vacibliyi vurğulanır.

Türk Yaşıl Baxış prinsipləri rəhbər tutularaq, iqlim dəyişikliyinə və ətraf mühitin mühafizəsində davamlı yaşıl inkişafa sadiqlik bir daha təsdiqlənir, yaşıl enerji avadanlığının və texnologiyalarının inkişafının, iqlimədavamlı infrastrukturun, enerji səmərəliliyinin və tullantıların səmərəli idarə olunmasının təşviqinin vacibliyi qeyd edilir.

Azərbaycanın 2024-cü ilin noyabrında BMT-nin İqlim Dəyişikliyi Konfransının 29-cu sessiyasına uğurlu ev sahibliyi, o cümlədən onun əsas nəticəsi olan Bakı İqlim Birliyi Paktı, eləcə də COP29 Sədrliyi çərçivəsində həyata keçirdiyi təşəbbüslər təqdir olunur.

Region boyu "yaşıl enerji" dəhlizlərinin inkişafının vacibliyi qeyd edilir, yaşıl enerjinin inkişafı və ötürülməsi üzrə layihələrin həyata keçirilməsində irəliləyiş, Təşkilatın üzv dövlətlərinin hökumətləri arasında Sadələşdirilmiş Gömrük Dəhlizinin yaradılması haqqında Sazişin qüvvəyə minməsi alqışlanır.

Bəyannamədə TDT-nin müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlığının gücləndirilməsini təşviq etməyə, mümkün olduqda bir-birinin namizədliklərini, qətnamələrini, bəyanatlarını və beynəlxalq təşkilatlar çərçivəsində ortaq maraqlara əsaslanan digər təşəbbüsləri daha güclü qarşılıqlı əlaqələndirməyə və dəstəkləməyə çağırış ifadə olunur, o cümlədən Qırğızıstanın 2027-2028-ci illər üçün BMT Təhlükəsizlik Şurasına və ECOSOC-un 2028-2030-cu illər üçün üzvlüyünə namizədliyi dəstəklənir.

Özbəkistanın 2035-2036-cı illər üçün BMT Təhlükəsizlik Şurasının və 2027-2031-ci illər üçün UNESCO-nun İcraiyyə Şurasının qeyri-daimi üzvlüyünə namizədliyi, Qazaxıstanın 2031-2032-ci illər üçün BMT Baş Assambleyasının 86-cı sessiyasının, 2039-2040-cı illər üçün BMT Təhlükəsizlik Şurasının və 2027-2031-ci illər üçün UNESCO-nun İcraiyyə Şurasının sədri vəzifələrinə namizədliyi, Türkiyənin 2037-2038-ci illər üçün BMT Təhlükəsizlik Şurasının, 2025-2029-cu illər üçün UNESCO-nun İcraiyyə Şurasının, 2026-2028-ci illər üçün ECOSOC-un qeyri-daimi üzvlüyünə namizədliyi, Azərbaycanın 2025-2029-cu illər üçün UNESCO-nun Ümumdünya İrs Komitəsinə və həmin illərdə BMT-HABITAT-ın İcraiyyə Şurasının üzvlüyünə namizədliyi alqışlanır.

Dünyaşöhrətli alim, Nobel mükafatı laureatı professor Əziz Sancarın Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına "Türk dünyasının birliyinə töhfələrinə görə" beynəlxalq mükafatının verilməsi yüksək qiymətləndirilir.

Üzv dövlətlərin Türk dövlətləri arasında qarşılıqlı anlaşma, həmrəylik və ortaq gələcəyə yardım etmək məqsədi daşıyan mədəni və humanitar əlaqələrin gücləndirilməsinin vacib elementi kimi gənclərlə bağlı məsələlər üzrə əməkdaşlığın daha da genişləndirilməsi və strukturlaşdırılması niyyəti ifadə olunur, TDT çərçivəsində gənclər və idman sahəsində mübadilə proqramlarının qabaqcıl nailiyyətləri, Qazaxıstanın Aktau şəhərinin TÜRKSOY-un təşəbbüsü ilə 2025-ci il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi təqdir olunur. Eyni zamanda, Özbəkistanın Türk Mədəniyyəti və İrsi Fonduna üzv olmaq üçün müraciəti dəstəklənir.

Sənəddə silahlı münaqişələr zamanı mədəni irsin qorunmasının vacibliyi vurğulanır, münaqişədən sonra mədəni irsin bərpasında Türk dövlətlərinin səyləri təqdir edilir.

Mədəniyyətlərarası körpü və ümumbəşəri dəyərlərin rəmzi kimi çıxış edən Novruzun transmədəni mahiyyəti ifadə edilərək, Türk mədəniyyətinin dərin zənginliyini və Türk xalqlarının ortaq dəyərlərini gələcək nəsillərə ötürmək əzmi bir daha vurğulanır, Azərbaycanın və TDT-yə üzv dövlətlərin, həmçinin Türkiyə Prezidentinin təşəbbüsü ilə Novruz bayramının Təşkilat çərçivəsində qeyd olunması barədə Katibliyə tapşırıq verilir.

Azərbaycanın 2025-ci ildə TDT-nin 12-ci Zirvə görüşünə ev sahibliyi etməyə hazır olduğu yüksək qiymətləndirilir.

Həmçinin Əfqanıstan üzrə Birgə Bəyanatın qəbul edilməsinin vacibliyi vurğulanır.

TDT-yə üzv dövlətlərin başçıları Macarıstanın Baş naziri Viktor Orbana Türk dünyasının həmrəyliyinə və rifahına verdiyi töhfələrə, habelə təşkilatın Budapeştdə keçirilən qeyri-rəsmi Zirvə görüşünə, Macarıstan hökumətinin və xalqının səmimi qonaqpərvərliyinə görə təşəkkürünü bildiriblər.

Bəyannamə Azərbaycan, qazax, qırğız, türk və özbək dillərində imzalanıb.



Mayın 21-də Budapeştdə Macarıstanın Baş naziri Viktor Orbanın adından Türk Dövlətləri Təşkilatının dövlət və hökumət başçılarının şərəfinə rəsmi lanç verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.



Mayın 21-də Budapeştdə Nobel mükafatı laureatı Əziz Sancarın Əlişir Nəvai Beynəlxalq Mükafatı ilə təltif olunması mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

## Prezidenti təbrik edirlər...

Ayrı-ayrı ölkələrin dövlət və hökumət başçılarının, nüfuzlu beynəlxalq təsisatların rəhbərlərinin, dünyada tanınan nüfuzlu ictimai-siyasi xadimlərin 28 May - Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevi təbrik etmələri artıq ənənə halını alıb. Bu il də Müstəqillik Günü ilə əlaqədar dövlətimizin başçısının ünvanına təbriklər gəlməkdədir. İndiyədək Böyük Britaniya və Şimali İrlandiyanın Kralı Əlahəzrət III Çarlz, İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud, Avstriya Respublikasının Federal Prezidenti Aleksander Van der Bellen, Çex Respublikasının Prezidenti Petr Pavel, İsveçin Kralı XVI Karl Qustav, Mərakeşin Kralı VI Məhəmməd, Avstraliya İttifaqının General-Qubernatoru Samanta Mostin, Malavi Respublikasının Prezidenti Lazarus Makkarti Çakvera, Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi, Səudiyyə Ərəbistanı Krallığının vəliəhdi, Baş nazir Məhəmməd bin Salman bin Əbdüləziz Al Səud, Kuba Respublikasının Prezidenti Migel Dias-Kanel Bermudes, Myanma İttifaq Respublikasının Dövlət İdarə Şurasının Sədri Min Aung Hlaing və digərləri Müstəqillik Günü ilə əlaqədar Azərbaycan Prezidentinə təbrik məktubları ünvanlayıblar.

Dövlətimizin başçısının ünvanına təbrik məktubları gəlməkdə davam edir.

# Dost ölkələr, strateji tərəfdaşlar...

## İlham Əliyev: Azərbaycanla Macarıstan arasında bir çox oxşarlıqlar var

## Viktor Orban: Dost dar gündə tanınar

Azərbaycan və Macarıstan arasında qarşılıqlı maraqlara əsaslanan münasibətlərin dərinləşməsinə hər iki tərəfdə böyük maraq var və ölkələrimiz buna güclü siyasi iradə göstərirlər. Burada heç şübhəsiz ki, liderlərin bir-birinə rəğbəti və yüksəksəviyyəli səfərlərin xüsusi rolu var. Dövlətimizin başçısı Macarıstana tez-tez səfərlər edir. Bundan əvvəlki səfər isə 2023-cü ildə baş tutub. Eyni fikirləri Baş nazir Viktor Orban barəsində də ifadə etmək mümkündür. Onun respublikamıza sonuncu səfəri keçən ilin noyabr ayında baş tutub.

Prezident İlham Əliyev Baş nazirin dəvəti ilə mayın 20-də Macarıstana növbəti dəfə işgüzar səfərə gəlib. Bu səfərin də gündəliyi kifayət qədər geniş olub. Liderlər səfər çərçivəsində mətbuata verdikləri bəyanatlarda ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə ediblər və müxtəlif istiqamətlərdə əlaqələrin genişləndirilməsinin zəruriliyini diqqətə çatdırıblar. “...Aramızda olan təmaslar müntəzəm xarakter daşıyır və Azərbaycan - Macarıstan əlaqələri uğurla inkişaf edir”, - deyə dövlətimizin başçısı vurğulayıb.

Mətbuata bəyanatlarında Prezident İlham Əliyev və Baş nazir Viktor Orban “dost” sözünü tez-tez işədiblər. Dövlətimizin başçısı Azərbaycanı və Macarıstanı “dost ölkələr, “strateji tərəfdaşlar” kimi səciyyələndirib. Aşağıdakı fikirləri isə Baş nazir ifadə edib: “Biz bu gün Macarıstanın köhnə dostunu görürük. Dost dar gündə tanınar və artıq 20 ildən çoxdur ki, Macarıstanın qarşılaşdığı istənilən sahədə - diplomatiyada, neft-qaz sənayesində və digər sahələrdə üzləşdiyi istənilən çətinlik zamanı həmişə Prezident Əliyev bizim yanımızda olub”.

Liderlərin ifadə etdikləri bu fikirlər iki ölkə və xalq arasında qarşılıqlı rəğbətin və səmimiyyətin əyani təsdiqidir. Hazırkı reallıqlar şəraitində hər iki ölkənin bir-birinə dərin ehtiyacı olduğu görünür. Viktor Orban Azərbaycanın, şəxsən Prezident İlham Əliyevin ölkəsi üçün dəfələrlə əsl dost davranışı ortaya qoyduğunu səmimiyyətlə etiraf edir. Eyni zamanda, Macarıstanın da Azərbaycan üçün önəmi böyükdür. Xüsusilə də bu ölkə Azərbaycan-Avropa İttifaqı (Aİ) əlaqələrinin genişlənməsinə davamlı şəkildə dəstək verir. Məlumdur ki, Aİ-nin ayrı-ayrı ölkələri və strukturları bir sıra hallarda ikili yanaşmalardan çıxış edir, milli dövlətlərə təzyiqlər göstərməyə çalışırlar. Açıq deyək ki, belə qərəzli münasibətlə həmçinin zaman-zaman Azərbaycan da üzləşir. İkinci Qarabağ müharibəsi günlərində, 23 saatıq lokal xarakterli antiterror tədbirləri ilə əlaqədar Fransa kimi ölkələrin, Avropa Şurası Parlament Assambleyası (AŞPA) kimi təsisatların Azərbaycanı, necə deyərlər, ağ yuyub qara sərən bəyanatlar səsləndirmələri, qərarlar qəbul etmələri uzaq keçmiş deyil. Halbuki Azərbaycan heç bir beynəlxalq hüquqpozma halına yol verməmişdir. Məhz Macarıstan kimi dost ölkələr Avropadakı Azərbaycanofob dairələrdən qaynaqlanan qərəzli münasibətə qarşı haqq səslərini ucaltdılar və ölkəmizin yanında olduqlarını bildirdilər. Belə dost dəstəyi hər zaman ölkəmizə haqq mübarizəsində əlavə stimul verir.

Görünən odur ki, bu gün bir çox məsələlər üzrə iki ölkənin mövqeləri üst-üstə düşür. “Bu gün dəyişən dünyada gedən proseslərə nəzər saldıqda, yenə də mövqelərimizdə elə bir böyük fərq yoxdur. Azərbaycanla Macarıstan arasında bir çox oxşarlıqlar var”, - deyə Prezident İlham Əliyev bildirib. Bəs bu oxşarlıqlar hansılardır? Dövlətimizin başçısı aşağıdakıları xüsusilə fərqləndirib:

-Birincisi, bizim tarixi köklərimiz. Macar xalqı da azərbaycanlılar kimi öz tarixi köklərinə çox bağlıdır.

-Ölkələrimizin əhalisinin sayının təxminən eyni olması, ərazilərimizin sahəsi də, demək olar ki, bir-birinə çox yaxındır.

-Macarıstan açıq dənizlərə çıxışı olmayan ölkədir. Azərbaycan da belə ölkələrdəndir. Xəzər dənizinin sahilində



### Oxşar çağırışlarla üz-üzə

yerləşsə də, respublikamızın açıq dənizlərə çıxışı yoxdur.

-Macarıstan müharibə aparan ölkə ilə həmsərhəddir. Biz də eyni vəziyyətdəyik. Macarıstan müharibə aparan bir ölkə, Azərbaycan isə digəri ilə həmsərhəddir. Onu da əlavə edək ki, Azərbaycan, eyni zamanda, dörd il yarım əvvəl müharibə aparan ölkə olmuşdur.

-Türk dünyasına bağlılıq. “Bu oxşarlıqlar təbii olaraq qarşılıqlı anlaşma üçün də gözəl zəmin yaradır. Çünki biz demək olar ki, eyni çağırışlarla üz-üzəyik”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

Azərbaycan Prezidenti mətbuata bəyanatında dost dövlətin milli maraqların müdafiəsində dayandığına xüsusi diqqət çəkərək “Macarıstanı müstəqil siyasət aparan nadir ölkələrdən biri” kimi səciyyələndirib və Baş nazir Viktor Orban barəsində müsbət fikirlər ifadə edib. Dövlətimizin başçısının bildirdiyi kimi, Avropa İttifaqı çərçivəsində müstəqil siyasət aparmaq kifayət qədər çətindir. Çünki bir çox qaydalar var, bir çox oturuşmuş prinsiplər var və Avropa İttifaqının vahid xarici siyasəti təbii olaraq prinsiplərdən biridir.

Lakin dünya Viktor Orbanın timsalında fərqli bir lider görür. O həmişə Macarıstanın dövlət və milli maraqlarını hər şeydən üstün tutur. Onun müxtəlif beynəlxalq tribunalardan etdiyi çıxışlar

### Aİ çərçivəsində müstəqil siyasət aparmaq çətin olsa da...

sözün əsl mənasında bir cəsarət nümunəsidir. Viktor Orban ayrı-ayrı beynəlxalq təsisatlardakı ətalət buzunu əritmək istəyir, axına qarşı gedir, ölkəsini, xalqını qorumağa, dünyada haqq-ədalətin bərqərar olmasına çalışır. Prezident İlham Əliyev Avropa İttifaqına daxil olan ölkənin milli maraqlarını qətiyyətlə qorumasını əsl qəhrəmanlıq adlandırıb. Həqiqətən də, Macarıstan Aİ məkanında öz maraqlarını müdafiə edən dövlətdir. Viktor Orban kənar qüvvələrin macar cəmiyyətinə dağıdıcı təsir cəhdlərini qətiyyətə neytrallaşdırmağı bacaran liderdir. Bu gün Macarıstanda milli dəyərlərin, ailə dəyərlərinin qorunması, neqativ təsirlərin qarşısının alınması Viktor Orbanın siyasətinin nəticəsində mümkün olur. “Biz bunu alqışlayırıq. Hər zaman Macarıstanın maraqlarını qoruyub və Macarıstan üçün nə xeyir gətirirsə, o təşəbbüslərə qoşulub, nə xeyir gətirmirsə, o təşəbbüslərdən həmişə uzaq olub. Yenə də deyirəm, Avropa İttifaqının içində ola-ola bu siyasəti aparmaq, deyə bilərəm ki, doğrudan da böyük qəhrəmanlıq tələb edir, siyasi iradə tələb edir və düşünülmüş siyasət tələb edir. Bütün bunlar da Macarıstanda var”, - deyə dövlətimizin başçısı vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Azərbaycan-Macarıstan iqtisadi əlaqələri sadiq tərəfdaşlıq ruhunda inkişaf edir

Azərbaycanın Mərkəzi-Şərqi Avropa regionunda ən yaxın dostlarından biri olan Macarıstanla siyasi-iqtisadi əlaqələr tarixi köklərə və mehriban dostluğa əsaslanır. Tarixin bir çox mərhələsində Macarıstan Azərbaycanla siyasi, elmi-mədəni proseslərdə ortaq mövqe sərgiləyərək etibarlı dost kimi sadiqliyini nümayiş etdirib. Respublikamız dövlət müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyevin Macarıstanla əməkdaşlığa xüsusi önəm verməsi, diplomatik münasibətlərin yaxın tərəfdaşlıq ruhunda inkişaf etdirilməsi rəsmi Budapeşti etibarlı müttəfiqə çevirib.

Prezident İlham Əliyevin də xarici siyasət kursunda Macarıstan ilk yerlərdən birini tutmuş, yaradılmış güclü siyasi dialoq və strateji əməkdaşlıq sayəsində əlaqələr yeni mərhələyə daxil olub. 2014-cü ildə imzalanmış “Azərbaycan Respublikası ilə Macarıstan arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə”, habelə 2023-cü ildə qəbul edilən “Azərbaycan Respublikası ilə Macarıstan arasında genişləndirilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə” münasibətləri ən yüksək zirvəyə yüksəldib.

## İqtisadi əməkdaşlığı gücləndirən yeni layihələr

Azərbaycan Prezidentinin Macarıstana davamlı xarakter alan səfərləri, eləcə də, Macarıstanın Baş naziri Viktor Orbanın Azərbaycana səfərləri əməkdaşlığın dinamikasını və siyasi ruhunu daha da gücləndirib, əsil dostluq platformasını formalaşdırıb. Təsadüfi deyil ki, V.Orban Azərbaycanı öz doğma Vətəni adlandırır. Eləcə də Cənab İlham Əliyev Macarıstanı öz doğma evimiz hesab etdiyini bildirir.

İki ölkə arasında iqtisadi sahədə əməkdaşlıq da dayanmadan güclənir. Azərbaycan-Macarıstan Hökumətlərarası Birgə Komissiyası iki ölkə arasında iqtisadi-ticari sahədə əlaqələrin inkişafında vacib mexanizm kimi çıxış edir. Eləcə də iki ölkənin biznes icması və iri şirkətlərinin təmsil olunduğu Biznes-forumlar iqtisadi təmasların artmasında mühüm platformaya çevrilib. Ötən dövrdə Bakı və Budapeştdə 20-yə yaxın biznes forum, işgüzar görüş və digər tədbirlər keçirilib ki, bu da Azərbaycan və Macarıstan şirkətləri arasında iqtisadi-investisiya təşəbbüskarlığını artırıb. Ölkələr arasında ticarət dövriyyəsi 2024-cü ildə 65 milyon dollara yaxın olsa da, tərəflər bunu qanedici hesab etmir və yeni imkanları dəyərləndirmək niyyətindədir.

Prezident İlham Əliyevin səfəri zamanı bu məsələyə də diqqət çəkilib, əlaqələrin intensivləşdirilməsi və ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi üçün əlavə addımlar atılacağı bəyan olunub. Macarıstanın “MVM” və digər şirkətləri Azərbaycanda neft-qaz yataqlarında, boru kəmərlərində səhmlərini artırmağı düşünür. Macarıstan şirkətləri Azərbaycanın əsas iki neft və qaz layihəsində “Azəri-Çıraq-Günəşli” və “Şahdəniz” yataqlarında pay sahibi olmaqla, yeni layihələrdə də səhmdar olacaq. Belə ki, gələn ilin əvvəlində növbəti kontrakt imzalanacaq ki, bu da Azərbaycanın qurudakı neft yataqlarında Macarıstan şirkətlərinin fəaliyyətini təmin edəcək. Eləcə də Azərbaycan ilə Macarıstan arasında iqtisadi əlaqələrin qeyri-neft sektoru üzrə daha da inkişaf edilməsi potensialı nəzərdən keçirilir və hər iki ölkənin birgə sərmayə qoyluşları, idxal və ixrac əməliyyatlarını genişləndirmək imkanları qiymətləndirilir.

## Macarıstanın enerji təhlükəziliyində Azərbaycanın rolu güclənir



Azərbaycan Pan-Avropa klubuna qoşduğu Macarıstanın enerji təhlükəsizliyində də mühüm təminatçıdır. Rəsmi Budapeşt Azərbaycanın təşəbbüskarlığı və qətiyyəti sayəsində Cənub Qaz Dəhlizində yer almış əsas tərəfdaşlardan birinə çevrilib. Azərbaycan öz qaz ixracının coğrafiyasını genişləndirməklə Macarıstanı da əlavə resurslarla təchiz etməyi düşünür. Bu isə Budapeştin Rusiya-Ukrayna müharibəsi nəticəsində Avropanın enerji bazarlarında yaranmış çətin və ağır tarif yüklərindən xilas olması, iqtisadi problemlərinin həllində mühüm rol oynayacaq. Baş nazir Viktor Orbanın vurğuladığı kimi qonşu ölkədə gedən müharibə ölkə iqtisadiyyatına 20 milyard avrodan artıq itki verib, Macarıstan Rusiya ilə enerji münasibətlərini qoruyub saxlasa da, Ukraynanın tətbiq etdiyi məhdudiyyətlər itkilərə səbəb olur. Türkdilli dövlətlərin, o cümlədən Azərbaycanın dəstəyi olmasaydı, bu itkilər daha ağır olar bilərdi. Bu bəyanat bir daha Azərbaycanın Macarıstanın enerji təhlükəsizliyində mühüm rolunu təsdiqləyir.

Tərəflər həm də “yaşıl enerji” layihələrində də fəal işləyir və Azərbaycanın böyükmiqyaslı yaşıl enerji gündəliyi macar şirkətləri üçün cəlbedicidir. Həmin resursların istehsalı və emalı növbəti mərhələdə işə düşəcək Xəzər-Qara dəniz-Avropa “yaşıl enerji” kəməri vasitəsilə Macarıstana da bərpaolunan enerjinin nəqlinə imkan verəcək. Yəni, Azərbaycan Macarıstanı qazla yanaşı, alternativ enerji mənbələri ilə də təmin edəcək.

## Türk ailəsinin etibarlı üzvü

Macarıstan davamlı olaraq Türk Dünyasının birgə layihələrində yaxından təmsil olunmaqla faktiki olaraq Türk dövlətlərinin ortaq maraqlarını ifadə edir, Türk Dövlətləri Təşkilatında (TDT) müşahidəçi üzv olmasına baxmayaraq, birgə layihələrdə təmsil olunub, özünü Türkdilli ölkələrin ailəsində hesab edərək regional layihələrdə iştirak edir. Türk dünyasının ortaq layihəsi olan Orta Dəhlizdə yer almaq üçün fəallığını artırır.

Beləliklə, regionda baş verən geosiyasi proseslər və yaranmış yeni reallıqlar Azərbaycan və Macarıstan arasında strateji müttəfiqliyin də dərinləşməsini labüd edir. Şübhəsiz ki, Prezident İlham Əliyevin mayın 20-də Macarıstana səfəri iki ölkə arasında əlaqələrin perspektivləri üçün yeni səhifə açacaq, xüsusən də iqtisadi əlaqələrin daha da dərinləşməsinə xidmət edəcək.

*ELBRUS CƏFƏRLİ*

# “Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi” mövzusunda beynəlxalq konfransın iştirakçılarına



Hörmətli konfrans iştirakçıları!

Sizi - “Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi” mövzusunda Ankara şəhərində keçirilən beynəlxalq konfransın iştirakçılarını səmimi-qəlbdən salamlayır, bu mühüm tədbirə ev sahibliyi edən dost və qardaş Türkiyə Respublikasına böyük təşəkkürümü bildirirəm. Azərbaycan və Türkiyə nümayəndələrinin bir araya gəldiyi bu konfrans regionumuzda sülhün, ədalətin və insan hüquqlarının bərqərar olması yolunda çox əlamətdar hadisədir. Azərbaycan və Türkiyə arasında müttəfiqlik və qardaşlıq münasibətləri, hər iki ölkənin beynəlxalq hüquq prinsiplərinə sadiqliyi bölgədə sabitliyin təmin olunması üçün möhkəm zəmin yaradır.

Çox təəssüf ki, silahlı münaqişələr və irqi ayrı-seçkilik nəticəsində milyonlarla insan öz doğma yurdlarından didərgin düşərək qaçqınlıq həyatı yaşayır. Xüsusilə, Birinci Dünya müharibəsi dövründə və ondan sonra erməni radikalizmi və ekstremizmi Azərbaycan xalqını misli görünməmiş müsibətlərə düçar etmiş, nəticədə yüz minlərlə soydaşımız öz dədə-baba torpaqlarından zorla çıxarılmış, kütləvi qətl və qırğınlara məruz qalmışdır.

Qərbi Azərbaycanda - Ermənistan ərazisində 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə sistemli və total şəkildə etnik təmizləmə həyata keçirilmiş və beləliklə, Ermənistanda bir nəfər belə azərbaycanlı qalmamışdır. Bu etnik təmizləmə böyük humanitar faciə olmaqla yanaşı, 1920-ci ildə Qərbi Zəngəzurun Azərbaycandan alınaraq Ermənistana verilməsi ilə Azərbaycanın əsas hissəsinin onun ayrılmaz hissəsi olan Naxçıvanla quru əlaqəsini kəsmək kimi mənfur geosiyasi məqsədə də xidmət etmişdir.

Ermənistan minilliklər boyu Qərbi Azərbaycanda yaşamış azərbaycanlıların zəngin mədəni irsini, qədim yaşayış məskənlərini, məscidlərini, ziyarətgahlarını və qəbiristanlıqlarını məhv etmişdir. Ermənistanın bu destruktiv addımları həmin ərazilərdən Azərbaycan xalqının izini silmək və regionun tarixini yenidən yazmaq məqsədi daşımışdır.

2020-ci il Vətən müharibəsində qazanılmış şanlı Zəfər, 2023-cü ildə suverenliyimizin tam bərpası, hazırda Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, keçmiş məcburi köçkünlərin öz evlərinə qayıdışı Qərbi azərbaycanlılarda da böyük ruh yüksəkliyi yaratmış və onların daha mütəşəkkil qaydada fəaliyyət göstərməsinə imkan vermişdir. Qərbi Azərbaycan məsələsi artıq beynəlxalq gündəliyə daxil edilmişdir.

Qərbi Azərbaycan İcmasının beynəlxalq hüquqa uyğun dinc təşəbbüsləri təqdirəlayiqdir və dünya ictimaiyyəti tərəfindən dəstəklənir. Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə Ermənistandakı dədə-baba torpaqlarına qayıdışının təmin edilməsi regionda sülhün, insan hüquqlarının və barışığın bərqərar olması üçün vacib şərtdir.

Təəssüf ki, Ermənistan cəmiyyətində türk xalqlarına qarşı dərin kök salmış nifrət, “böyük Ermənistan” xülyası, həmin ölkənin konstitusiyasında Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarının yer alması, Qərbi azərbaycanlıların qayıdışına imkan verilməməsi sülhə mane olur. Ermənistan qonşu dövlətlərə qarşı ərazi iddialarına son qoymalı, azərbaycanlılara məxsus mədəni irsin bərpası və qorunması üçün addımlar atmalı, bu məqsədlə UNESCO-nun monitorinq missiyasına icazə verməli, qayıdış mövzusunda İcma ilə dialoqa başlamalıdır. Ermənistan Qərbi azərbaycanlıların nə vaxt və hansı şərtlərlə öz dədə-baba yurdlarına dönə bilmələri ilə bağlı aydın mövqe ifadə etməlidir. Bu məsələ ilə əlaqədar Ermənistan rəhbərliyinin İcmanın nümayəndələrini qəbul etməsini gözləyirik.

Xüsusi olaraq vurğulamaq istərdim ki, Qərbi azərbaycanlıların qayıdış istəyi Ermənistana qarşı ərazi iddiası demək deyildir və Ermənistan həmin istəyi bu formada təqdim etmək cəhdlərindən əl çəkməlidir. Qayıdış reallaşana qədər bu məsələ Azərbaycanın gündəliyindən çıxmayacaqdır. Təbii ki, öz yurdlarına dönəcək Qərbi azərbaycanlılara təhlükəsizlik zəmanəti də verilməlidir.

Hesab edirik ki, Qərbi Azərbaycanla bağlı dünya ictimaiyyətinin məlumatlılığının artmasına xidmət edən bu beynəlxalq konfrans soydaşlarımızın öz doğma torpaqlarına qayıdışına önəmli töhfə verəcəkdir.

İnanırıq ki, Qərbi azərbaycanlılar təhlükəsiz və ləyaqətli şəkildə öz doğma yurdlarına qayıdacaq və bölgədə davamlı sülh bərqərar olacaqdır.

Sizə ən xoş diləklərimi çatdırır və konfransın işinə uğurlar arzulayıram.

# Ankarada Qərbi Azərbaycana qayıdış mövzusunda beynəlxalq konfrans keçirilib










“Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi” mövzusunda beynəlxalq konfransda iştirak məqsədilə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin başçılığı ilə nümayəndə heyəti Ankaraya səfər edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə Prezident Administrasiyasının rəsmiləri, Milli Məclisin deputatları, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin, ADA Universitetinin, Qərbi Azərbaycan İcmasının və “Azərbaycan-Türkiyə Evi” İctimai Birliyinin nümayəndələri daxildir.

Səfər iştirakçıları mayın 20-də Ankaradakı Heydər Əliyev Parkında Azərbaycan xalqının Ümummilli Liderinin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub, Ulu Öndərin xatirəsini ehtiramla anıblar.

Sonra Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn edildiyi Anıtqəbir ziyarət olunub, Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoyulub, əziz xatirəsi yad edilib.

Daha sonra Türkiyə Böyük Millət Məclisində sədr Numan Kurtulmuşla keçirilən görüşdə Azərbaycan ilə qardaş ölkə arasında parlamentlərarası münasibətlərin sağlam təməllər üzərində qurulduğu qeyd olunub, bu dostluq və qardaşlıq əlaqələrinin beynəlxalq müstəvidə gətirdiyi dividendlər, parlamentlərdə fəaliyyət göstərən dostluq qruplarının fəaliyyətinin daha da gücləndirilməsi məsələləri haqqında danışılıb.

Türkiyə Respublikası Prezidentinin Administrasiyasında vitse-prezident Cevdet Yılmazla görüşdə isə iki qardaş ölkə arasında münasibətlərin yüksələn xətlə inkişafı haqqında fikir mübadiləsi aparılıb. Tərəflər Prezident İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın yorulmaz və qətiyyətli addımları nəticəsində Azərbaycanın və Türkiyənin “Bir millət, iki dövlət” ideyasını hər zaman qoruduğunu, ən çətin anlarda bir-birinə dayaq olduqlarını xüsusi vurğulayıblar.

Səfər çərçivəsində, həmçinin Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini Efkan Ala ilə görüş keçirilib. Görüşdə hakim siyasi partiyaların gələcəkdə müxtəlif məsələlərlə bağlı qarşılıqlı təcrübə mübadiləsinin dərinləşdirilməsi haqqında fikir mübadiləsi aparılıb.

Mayın 21-də Türkiyənin Ankara şəhərində Qərbi Azərbaycan İcmasının və “Azərbaycan-Türkiyə Evi” İctimai Birliyinin birgə təşkilatçılığı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, ADA Universitetinin və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin tərəfdaşlığı ilə “Qərbi Azərbaycana qayıdış insan hüquqlarının aliliyinin mühüm şərti kimi” mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransa Azərbaycan və Türkiyədən 250-yə yaxın iştirakçı, o cümlədən Türkiyə Böyük Millət Məclisinin (TBMM) üzvləri, dövlət qurumlarının nümayəndələri, universitet rektorları, elm və iş adamları, qeyri-hökumət təşkilatlarının və media nümayəndələri qatılıb.

Tədbir Azərbaycanın və Türkiyənin Dövlət himnlərinin səslənməsi ilə başlayıb. Sonra Ümummilli Lider Heydər Əliyevin, Azərbaycanın və Türkiyənin bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Daha sonra Qərbi Azərbaycan həqiqətləri və Qərbi Azərbaycan İcmasının fəaliyyəti, Qərbi azərbaycanlıların ləyaqətli şəkildə geri qayıdışı ilə bağlı Qərbi Azərbaycan Televiziyası tərəfindən hazırlanan film nümayiş etdirilib.

Tədbirin açılışında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Konfrans iştirakçılarına müraciətini oxuyub. O, Türkiyədə belə bir tədbirin keçirilməsinin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edərək, konfransın işinə uğurlar arzulayıb.

Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin birinci müavini, TBMM-nin üzvü Efkan Ala Qərbi Azərbaycanla bağlı Türkiyədə ilk belə konfransın keçirilməsinin tarixi əhəmiyyətindən danışıb.

Konfrans işini panel müzakirələrlə davam etdirib.

Qərbi Azərbaycanın tarixindən bəhs edən birinci panel türkiyəli tarixçi, Yeni Türkiyə Strateji Araşdırma Mərkəzinin Tarix İnstitutunun direktoru Prof. Dr. Kamal Çiçəyin moderatorluğu ilə baş tutub. Paneldə tanınmış tarixçi professorlar İlbər Ortaylı, Aygün Attar, Tufan Gündüz, Okan Yeşilot və İbrahim Ethem Atnur çıxış ediblər.

TBMM-in Qadınlar və kişilər arasında imkan bərabərliyi komissiyasının sədri Çiğdem Erdoğanın moderatorluğu ilə keçirilən “Qərbi Azərbaycan: hüquqi və humanitar aspektlər” mövzusunda ikinci paneldə TBMM-in komissiya sədrləri Vedat Bilgin və Derya Yanık, TBMM-in üzvü Zeynep Yıldız, professorlar Cavid Abdullazadə, Yaşar Sarı və Muharrem Kılıç çıxış ediblər.

Panellərdən sonra iştirakçılara təşəkkürnamələr təqdim edilib.

Konfransın bağlanış sessiyasında Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərov, TBMM-in üzvü, Ədalət və İnkişaf Partiyası sədrinin müavini Zafer Sırakaya, Milli Məclisin deputatı, “Azərbaycan-Türkiyə Evi” İctimai Birliyinin sədri Tənzilə Rüstəmxanlı və TBMM-in üzvü, Türkiyə-Azərbaycan Dostluq Qrupunun sədri Şamil Ayrım çıxış ediblər.

Daha sonra iştirakçılar adından konfransın yekun sənədi qəbul edilib.

Sənəddə XX əsrin müxtəlif mərhələlərində Qərbi Azərbaycanda, indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar sistemli etnik təmizləməyə məruz qalaraq doğma yurdlarından zorla çıxarıldıqları, bu proses nəticəsində yüz minlərlə Qərbi azərbaycanlının qaçqın vəziyyətinə düşdüyü, onların mədəni irsinin məhv edildiyi vurğulanıb. Bildirilib ki, bu faciəvi hadisələr regionun mədəni müxtəlifliyinə və tarixi yaddaşına ciddi zərbə vurub və -hazırda həll edilməmiş ədalətsizlik kimi qalmaqdadır.

Qeyd olunub ki, Qərbi azərbaycanlıların öz ata-baba torpaqlarına təhlükəsiz və ləyaqətli qayıdışı tarixi ədalətsizliyin aradan qaldırılmasını təmin etməklə yanaşı, Cənubi Qafqazda sabitlik və barışıq üçün mühüm addımdır. Qərbi Azərbaycanda dağıdılmış məscidlərin və digər mədəni abidələrin bərpası, qorunması regional sülh və birgəyaşayışın möhkəmləndirilməsi üçün vacibdir. Mədəni müxtəliflik və barışığa xidmət edən bu işdə beynəlxalq təşkilatların yaxından iştirakı zəruridir.

Sənəddə, həmçinin Ermənistan hökuməti Qərbi azərbaycanlıların doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışını qeyd-şərtsiz təmin etməyə və bunun üçün beynəlxalq hüquqa uyğun real addımlar atmağa çağırılıb. Diqqətə çatdırılıb ki, Ermənistan qayıdışı təmin etmək məqsədilə Qərbi Azərbaycan İcması ilə konstruktiv dialoq başlamalı, azərbaycanlıların mədəni irsinin qorumaq və bərpa etmək üçün UNESCO-nun və digər müvafiq qurumların monitorinq missiyalarına icazə verilməli və Qərbi azərbaycanlıların mülkiyyət hüquqlarını təmin etməlidir.

Tədbir iştirakçıları Prezident İlham Əliyevin Qərbi Azərbaycana sülh yolu ilə qayıdış məsələsində liderliyini, beynəlxalq hüququn aliliyinə sadiqliyini və ədalətin bərpasına yönəlmiş səylərini yüksək qiymətləndirib, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın haqq-ədalətə, sülh və barışığa möhkəm dəstəyini alqışlayıblar.

Sonda xatirə şəkli çəkdirilib.

# YAP Mərkəzi Aparatında görüş keçirilib

Mayın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında partiyanın Veteranlar Şurasının üzvləri ilə “Türk Ağsaqqaları arasında Əlaqələrin İnkişafı” İctimai Birliyinin nümayəndələrinin görüşü keçirilib.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinin təşviqi və Prezident İlham Əliyevin milli maraqlara əsaslanan məqsədyönlü siyasətinin təbliği, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması kimi məsələlərin daim diqqət mərkəzində olduğunu və ardıcıl tədbirlərin həyata keçirildiyini bildirib. Görüşün əhəmiyyətinə diqqəti cəlb edən Arif Rəhimzadə sözügedən istiqamətlərdə birgə layihələrin həyata keçirilməsinin önəmini vurğulayıb.





“Türk Ağsaqqaları arasında Əlaqələrin İnkişafı” İctimai Birliyinin sədri, AMEA-nın müxbir üzvü Sudeyif İmamverdiyev rəhbərlik etdiyi təşkilatın fəaliyyəti haqqında ətraflı məlumat verib. İctimai Birliyin aktual məsələlərlə əlaqədar mühüm layihələr reallaşdırdığını, o cümlədən türk dövlətlərində əlamətdar hadisələrlə bağlı çoxsaylı tədbirlər keçirdiyini, Azərbaycanın bir sıra ali məktəbləri ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdıran S.İmamverdiyev rəhbərlik etdiyi təşkilatın YAP Veteranlar Şurası ilə işbirliyində maraqlı olduğunu bildirib.

Görüşdə YAP Veteranlar Şurasının üzvləri Tahir Məmmədov, Elbay Qasımzadə, Arif Qaraşov, Zərifə Quliyeva, Adilə Abasova, Tahir Rzayev, Şahlar Əsgərov, YAP Gənclər Birliyinin sədr müavini Fəsli Nəbiyev, “Türk Ağsaqqaları arasında Əlaqələrin İnkişafı” İctimai Birliyinin İdarə Heyətinin üzvü Ramiz Məşədihəsənli, Qadınlar Şurasının sədri Güllü Yoloğlu, təşkilatın nümayəndəsi İbrahim Quliyev çıxış edərək əməkdaşlıq imkanları barədə fikirlərini bildiriblər.










# “Türk Dünyasının Gənc Gücü: Bir Millət, Üç Dövlət Vizyonu”

Mayın 20-də Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) ev sahibliyi ilə Yeni Azərbaycan Partiyası (YAP), Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) və ŞKTC-nin Ulusal Birlik Partiyasını (UBP) təmsil edən gənclərin iştirakı ilə “Türk Dünyasının Gənc Gücü: Bir Millət, Üç Dövlət Vizyonu” mövzusunda konfrans keçirilib.

Açılış mərasimində çıxış edən ŞKTC-nin Prezidenti Ersin Tatar Türk dünyasında əməkdaşlığın dərinləşdirilməsinin mühüm prioritet olduğunu bildirərək bu istiqamətdə həyata keçirilən fəaliyyətin əhəmiyyətini qeyd edib. Türkiyə, Azərbaycan və Şimali Kipr Türk xalqlarını ortaq dəyərlərin birləşdirdiyini söyləyən Ersin Tatar konfransın gənclər arasında səmərəli fikir mübadiləsinin aparılması baxımından önəmini nəzərə çatdırıb.

ŞKTC-nin Baş naziri, Ulusal Birlik Partiyasının Sədri Ünal Üstel isə çıxışında üç ölkənin müştərək hədəflərinin reallaşdırılmasında gənclərin rolunu vurğulayıb. O, YAP, AK Parti və UBP arasında imzalanmış üçtərəfli Anlaşma Memorandumunun önəminə toxunaraq hakim partiyaların gənclərini bir araya gətirən “Bir Millət, Üç Dövlət Gənclik Düşərgəsi” layihəsinin birgə fəaliyyət və təcrübə mübadiləsinin təşviqi xüsusunda əhəmiyyətini qeyd edib.

Konfransda çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov bildirib ki, hər üç ölkənin gənclərinin ortaq məqsədlər ətrafında birləşməsi müstəsna əhəmiyyətə malikdir: “Bu gün Azərbaycan, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətindən olan gənclərin bir araya gəlməsi liderlərimizin siyasi iradəsinin nəticəsi, partiyalarımız arasındakı səmimi dostluq münasibətlərinin təzahürüdür. Biz bu birliyi yeni ideya və təşəbbüslərlə daha da gücləndirərək gələcəyə daşımalıyıq”.

Ulusal Birlik Partiyasının Baş katibi Oğuzhan Hasipoğlu, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin üzvü Ahmet Savaşan, UBP-nin Gənclik Qollarının təmsilçisi Mahmud Hüdaverdi, Türkiyənin Ədalət və İnkişaf Partiyasının Gənclik Qollarının rəhbəri Yusuf İbiş və Türkiyə Böyük Millət Məclisinin üzvü Zəhranur Aydəmirin də çıxış etdikləri konfrans panel sessiyaları ilə öz işini davam etdirib.

Daha sonra müxtəlif mövzularda təşkil olunan dəyirmi masalarda hakim partiyaların gənclər təşkilatları arasında birgə fəaliyyətin gücləndirilməsi ilə əlaqədar müzakirələr aparılıb.

Sonda konfrans iştirakçılarına təşəkkürnamələr təqdim olunub.

# AQEM-Azərbaycan platforması sahibkarlara yeni imkanlar qazandıracaq

## Təşkilatın 10-cu biznes-forumunda sahibkarlar yeni imkanları qiymətləndirib

Bakıda keçirilən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) Biznes Şurasının 8-ci iclası mühüm hadisələrlə yadda qalıb. Tədbirdə iştirak edən ölkələrin nüfuzlu iqtisadi qurumları, biznes icması və şirkətlərin nümayəndələri iqtisadi, ticari və investisiya məsələləri ilə bağlı əhəmiyyətli razılaşmalar əldə ediblər. Ən mühüm tədbirlərdən biri isə Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və AQEM Katibliyinin təşkilatçılığı ilə 10-cu biznes-forumun keçirilməsi və iş adamları arasında yeni fürsətlər üzrə müsbət qərarların qəbul edilməsi hesab oluna bilər. Qeyd edək ki, AQEM Nazirlər Şurasının qərarına əsasən, 2024-2026-cı illərdə Müşavirəyə Azərbaycan sədrlik edir. Azərbaycanın təşkilata rəhbərliyi çərçivəsində isə Biznes Şurasına sədrlik KOBİA tərəfindən həyata keçirilir.

### KOB-lar rəqəmsallaşma və "yaşıl transformasiya"da birləşir

Biznes-forumda AQEM-ə üzv dövlətlər arasında sənaye sahəsində əməkdaşlıq, KOB-ların qlobal dəyər zəncirində iştirakı, rəqəmsallaşma, qadın sahibkarlığının inkişafı, KOB-ların "yaşıl" keçidi, sərhədlərarası ticarət və e-ticarət, KOB-ların investisiyalarını dəstəkləyən institusional çərçivələr, biznes sahəsində çağırışlar və imkanlar müzakirə edilib. Müzakirələr zamanı AQEM-ə üzv dövlətlər arasında sahibkarlıq sahəsində əməkdaşlığı gücləndirmək, xüsusilə kiçik və orta biznesin (KOB) dəstəklənməsi, sərhədlərarası tərəfdaşlıqların qurulması, habelə regionda dayanıqlı, innovativ və inklüziv iqtisadi artımın təşviqinə yönəlmiş təşəbbüslərin inkişaf etdirmək niyyətləri ifadə olunub. Həmçinin tərəflər KOB-ların rəqəmsallaşdırılması, sənaye əməkdaşlığı, qadın sahibkarlığı, "ağıllı şəhər" təşəbbüsləri və "yaşıl transformasiya" kimi məsələlər ətrafında gələcək əməkdaşlıq yollarını müəyyənləşdirib.




Qazaxıstan, Rusiya, Tailand, Türkiyə, Çin, Hindistan, Qırğızıstan, Fələstin və Özbəkistanın sənaye və ticarət palatalarının, investisiyaların təşviqi agentliklərinin, sahibkarlıqla bağlı təşkilatlarının nümayəndələri tərəfindən sənaye əməkdaşlığı və KOB-ların qlobal dəyər zəncirində iştirakı, rəqəmsallaşma, AQEM-ə üzv dövlətlər arasında qadın sahibkarlığının inkişafı, KOB-ların yaşıl keçidi, sərhədlərarası ticarət və e-ticarət, KOB-ların investisiyalarını dəstəkləyən institusional çərçivələr mövzularında təqdimatlar keçirilib.

AQEM-in baş katib Kayrat Sarıbay çıxışında AQEM Biznes Şurasının üzv ölkələr arasında iqtisadi əməkdaşlıq, əlaqələrin genişləndirilməsi imkanları baxımından əhəmiyyətli platforma olduğunu vurğulayıb. Bildirib ki, AQEM

### Əməkdaşlığın yeni ekosisteminin yaradılması

ölkələri arasında əməkdaşlıq ekosisteminin yaradılması regional inkişafın yeni üfüqlərini açacaq və daha inklüziv, rəqəmsal və dayanıqlı iqtisadi gələcəyin formalaşmasına kömək edəcək.

AQEM-in Biznes Şurasının sədri və KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov isə bildirib ki, forum kiçik və orta bizneslərin iqtisadi artımını sürətləndirmək və AQEM regionu üzrə iqtisadi əlaqələri gücləndirmək üçün yeni qapılar açacaq. KOB-lar öz bilik və bacarıqların, rəqəmsal transformasiya və dayanıqlı inkişaf sahələrində təşəbbüslərini AQEM ölkələrinin biznes icması ilə əlaqələndirməkdə yeni nəticələr əldə etmək imkanı qazanacaq.

### Kiçik və orta biznes üçün yeni fürsətlər

Biznes-forum çərçivəsində Azərbaycan KOB-larının istehsal etdiyi qida və qeyri-qida məhsullarından ibarət kiçik sərginin təşkili isə milli ixracın təşviqi baxımından yeni imkan kimi dəyərləndirilə bilər. Bu, həmçinin Azərbaycanın qeyri-neft məhsullarının Asiya bazarlarına çıxışı, KOB-ların yeni bazar müştəriləri tapması üçün təşviqedici və stimulyaradıcı alət deməkdir. Nəzərə alsaq ki, Asiya böyük imkanlara malik regiondur və iqtisadi bazar payı ildən-ilə artır, zəngin insan kapitalı, innovasiya potensialı və güclü iqtisadi bazası genişlənir, bu baxımdan Azərbaycanın regional iqtisadi əməkdaşlıq və dialoqda rolunun möhkəmlənəcəyi istisna deyil. Hazırda Azərbaycanın AQEM-ə üzv ölkələr ilə ixracının dəyəri 1,2 milyard dollar, ümumi ticarət dövriyyəsi isə 4,6 milyard dollar təşkil edib. Bu rəqəmlər iqtisadiyyatlarımız arasındakı əlaqələrin genişləndiyini göstərir. Ona görə də, AQEM-Azərbaycan platforması sahibkarlar, investorlar və innovatorlar arasında birgə iqtisadi mübadilələrin artması iqtisadi artımın və gələcək rifahın da yaxşılaşmasına öz töhfəsini verəcək.



Biz sözlə, biznes-forum azərbaycanlı kiçik biznes icmasının üzvlərinin AQEM ölkələrinin sahibkarları ilə əlaqələrinin qurulması, koordinasiyalı fəaliyyətinin təmin edilməsi üçün əlavə fürsətlər yaradacaq.

**E.CƏFƏRLİ**

# Sülhə məcburetmə taktikası

## 17-ci sanksiya paketi qəbul edildi - 18-ci hazırlanır...

2022-ci ilin fevralında Rusiyanın Ukraynaya qarşı başladığı genişmiqyaslı hərbi müdaxilə beynəlxalq münasibətlər sistemində yeni gərginlik mərhələsi yaratdı. Beynəlxalq miqyasda, xüsusilə, Qərbdə beynəlxalq hüququn pozulması kimi qiymətləndirilən bu hala cavab olaraq ABŞ, Avropa İttifaqı (Aİ), Böyük Britaniya, Kanada, Yaponiya və digər ölkələr Rusiyaya qarşı fərqli spektrlərə əsaslanan iqtisadi və siyasi sanksiyalar tətbiq etməyə başladılar. Qeyd edək ki, adıçəkilən sanksiyalar yalnız hərbi əməliyyatları dayandırmaq məqsədi daşımırdı, eyni zamanda, Rusiyanın iqtisadi imkanlarını məhdudlaşdırmağa və gələcəkdə oxşar addımların qarşısını almağa hədəflənmişdi.

### Fərqli sektorları əhatə edən 17 qadağa paketi...

2022-ci ildən bəri qəbul olunan ardıcıl sanksiya paketləri Rusiyanın enerji, maliyyə, texnologiya, nəqliyyat və hərbi sənaye sahələrini əhatə edərək ölkənin beynəlxalq iqtisadi sistemdən təcrid olunmasına yönəldi. 2022-ci ildə Aİ tərəfindən Rusiyaya qarşı 8 sanksiya paketi qəbul edildi, 2023-cü ildə bir neçə sanksiya paketi bu siyahıya əlavə olundu. 13-cü sanksiya paketi 2024-cü ilin 23 fevralında, 14-cü paket isə həmin ilin 24 iyunda təsdiqlənib. 2024-cü ilin son sanksiya toplusu - 15-ci paket isə 16 dekabrda qüvvəyə mindi. Bu il başlananda indiyə qədər 2 sanksiya paketi qəbul edilib. Bunlardan birincisi fevralın 24-də qəbul edilmiş 16-cı paketdir. Digəri və həlilik son 17-ci sanksiya paketi isə bir neçə gün öncə, mayın 20-də qəbul olunub.

Vurğulandığı kimi, Avropa İttifaqının sanksiyaları əsasən enerji sektorunu (beşinci sanksiyalar paketində Rusiya kömürünün idxalına embarqo qoyulub), maliyyə sektorunu (Rusiya banklarının SWIFT sistemindən çıxarılması və digər maliyyə məhdudiyyətləri tətbiq olunub), sənaye və texnologiyanı (Rusiya bayrağı altında üzən gəmilərin Aİ limanlarına girişinə qadağa qoyulub) əhatə edir. Fərdi sanksiyalara gəldikdə isə bu, Rusiya rəsmiləri, iş adamları və digər şəxslərə qarşı tətbiq edilib. Məsələn, 57 rusiyalı və Rusiyadan olan strukturlar sanksiya siyahısına daxil olunub.

ABŞ-ın sanksiyalarına gəldikdə, buraya da maliyyə sektoru, texnologiya və enerji, eyni zamanda, fərdi sanksiyalar daxildir.

### Yeni sanksiyada nələr var?

Mayın 20-də Aİ ölkələri Rusiyaya qarşı 17-ci sanksiyalar paketini təsdiqləyib, Avropa diplomatiyasının rəhbəri Kaja Kallas "X" sosial şəbəkəsində bildirib ki, Aİ Rusiyaya qarşı 17-ci sanksiya paketini təsdiqləyib. Buraya "kölgə donanması"ndan olan 189 gəmi daxil edilib. Kallasın sözlərinə görə, paketə "hibrid təhdidlərlə mübarizə və insan hüquqlarının müdafiəsi" tədbirləri də daxildir. O, həmçinin Avropa İttifaqının Rusiyaya qarşı əlavə məhdudlaşdırıcı tədbirlərlə bağlı gördüyü işlər barədə məlumat verib. Aİnin sanksiyalar paketinin məzmununu əhatə edən press-relizində bildirilir ki, yeni sanksiyalar Rusiyanın davam edən müharibəsinin xərclərini artırır, onun onsuz da gərgin və kövrək iqtisadiyyatına təzyiq xarakteri daşıyır. Bu, Aİ-nin Ukraynaya davamlı və sarsılmaz dəstəyinin bariz siqnalı kimi xarakterizə olunur. Bu paket həm də fiziki və hüquqi şəxslərin sanksiya siyahısını genişləndirir. Bundan əlavə, Yaponiyanın enerji təhlükəsizliyini təmin etmək üçün Saxalin-2 layihəsi üçün neftin qiymətinin yuxarı həddi ilə bağlı mövcud azadlığı genişləndirir. Aİ sanksiya siyahısına kölgə neft tankerləri donanmasının bir hissəsi olan və ya Rusiyanın enerji gəlirlərinə töhfə verən daha 189 gəmi əlavə edib və onların siyahıdakı ümumi sayı 342-yə çatıb. Paketə, həmçinin Rusiyanın hərbi-sənaye kompleksinə birbaşa və ya dolayı dəstək verən və ya sanksiyalardan yayınmada iştirak edən 31 yeni şirkət də daxil olunub. Fərdi sanksiyalar üzrə siyahıya isə daha 75 şəxsin adı əlavə edilib. Sanksiya siyahısına Rusiya Müdafiə Nazirliyinin Radiasiya, Kimyəvi və Bioloji Müdafiə Qoşunları, 27-ci Mərkəzi Elmi-Tədqiqat İnstitutu və 33-cü Mərkəzi Tədqiqat və Sınaq İnstitutu da daxildir.




### Sanksiyanın siyasi şifrəsi - Aİ masaya dönmək istəyir

Qeyd olunmalıdır ki, Aİ artıq yeni, 18-ci sanksiya paketinin də anonsunu verilib. Bir sıra siyasi mütəxəssislər bu sanksiya paketlərinin ard-arda anonsunun verilməsini müəyyən məcburetmə prinsipi kimi də dəyərləndirirlər. Başqa sözlə, İstanbul prosesinin daha uğurlu bir motivə qədəm qoyması üçün 17-ci sanksiya paketi Rusiya üzərində siyasi və iqtisadi təzyiq yaratmalıdır. Düşünülür ki, bu addım həm siyasi, həm də iqtisadi cəbhədə təzyiq mexanizmlərini daha da gücləndirəcək. Bu paket yalnız Rusiyanın hərbi əməliyyatlardakı gücünü deyil, iqtisadi dayaqlarına da təsir göstərəcək - nəticə etibarı ilə paket hazırda gündəmdə olan sülh təşəbbüslərinə razılıq verməyə məcbur etmək üçün alət kimi qiymətləndirilir. Nəzərə alsaq ki, yeni sanksiyalar paketində iqtisadi məhdudiyyətlərlə yanaşı, texnologiya və enerji sahəsində hədəflənmiş qadağalar, PUA və raket sistemləri üçün istifadə olunan komponentlərin ixracına qadağalar, "kölgə donanması"na qarşı tədbirlər və Rusiya ətrafında formalaşan alternativ iqtisadi şəbəkələrə qarşı məhdudiyyətlər yer alır, bu addım Rusiyanın Ukraynada davam edən hərbi əməliyyatlarına son qoyması üçün mexanizm sayılır.

Eyni zamanda, paketin qəbulunda Aİ-nin göstərdiyi cənfəşanlıq həm də danışıqlar prosesinə yenidən daxil olma cəhdi kimi də dəyərləndirilir. Diqqət yetirsək, Avropa İttifaqı və tərəfdaş ölkələr bu paket vasitəsilə açıq mesaj verirlər: Moskva sülh masasına oturmadıqca, iqtisadi və texnoloji təcrid daha da dərinləşəcək. Sülh prosesinin müddəalarının formalaşmasında isə Aİ-nin iştirakı labüddür. Hər halda, yeni sanksiyanın siyasi şifrəsi bunu deməyə əsas verir.

Beləliklə, 17-ci paket, eyni zamanda, diplomatik müstəvidə növbəti siqnal sayılır. Bu paketlə Rusiya iqtisadi, siyasi və hərbi baxımdan təzyiqlərin zirvəsinə çatdırılır ki, bu da Kremlin beynəlxalq təcriddən çıxmasının yeganə yolunun konstruktiv sülh danışıqlarına razı olmaqdan keçdiyini göstərir. Sanksiyalar sadəcə, cəza vasitəsi deyil, həm də sülhə təhrik edən siyasi manevr kimi çıxış edir.

**P.SADAYOĞLU**

# Suriya "xilas oldu"...

## Aİ özünün iqtisadi baryerlərini qaldırdı

### Yaxın Şərqdə yeni iqtisadi-siyasi mühit formalaşdırılır

Son günlərdə Yaxın Şərqdə baş verən geosiyasi dəyişikliklər, xüsusilə Suriya ilə bağlı beynəlxalq münasibətlərdə yeni yanaşmaların formalaşması mühüm nəticələrə yol açır. Belə ki, ABŞ və Avropa İttifaqı (Aİ) tərəfindən uzun illər tətbiq edilən sərt sanksiyalar fonunda Suriya iqtisadiyyatı çökmək dərəcəsinə çatmış, regionda humanitar vəziyyət isə dramatik şəkildə pisləşmişdi - bunun fonunda son qərarlar, sanksiyaların ləğvi, bütövlükdə Qərbin Suriyaya münasibətdə daha ılıq mahiyyət nümayiş etdirməsi situasiyanın dəyişməsinə səbəb olub. Bu dəyişikliklər isə iqtisadi mahiyyət daşısa da, həm humanitar məqsədlər, həm də geosiyasi maraqlar kontekstində qiymətləndirilir.

### ABŞ-ın ardınca Aİ də ləğv etdi...

Vurğulandığı kimi, Avropa İttifaqı Aİ Suriyaya qarşı bütün iqtisadi sanksiyaları tamamilə ləğv edib. İttifaqa üzv ölkələrin Xarici İşlər Nazirləri Şurasının Brüsseldə keçirilən iclasından sonra çıxış edən Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas bu qərarla Suriyanın yeni keçid hökumətinə bir şans verildiyini bildirib. Almaniyanın xarici işlər naziri Yohan David Vadephul deyib ki, bu qərarın əvəzində bütün etnik və dini qrupları əhatə edən siyasətin həyata keçirilməsi gözlənilir.

Bununla belə, Bəşar Əsəd rejimi ilə əlaqəsi olan şəxslərə və təşkilatlara, habelə insan hüquqları pozuntularında məsuliyyət daşıyanlara qarşı sanksiyalar qüvvədə qalacaq. Həmçinin silahların, eləcə də daxili repressiyalarda istifadə oluna biləcək malların və texnologiyaların, məsələn, izləmə və dinləmə proqramlarının ixracına qoyulan məhdudiyyətlər də qüvvədə qalır.

Qeyd edək ki, Aİ ölkələri artıq fevral ayında sanksiyaların mərhələli şəkildə yumşaldılmasını qərara almışdı. ABŞ Prezidenti Donald Trampın bir neçə gün öncə Körfəz ölkələrinə səfəri çərçivəsində Suriyaya qarşı sanksiyaları ləğv etməsi belə bir qərarın tam şəkildə ortaya çıxmasına şərait yaratdı. Qeyd edək ki, Tramp qərarının Suriyanın yeni rəhbərliyi ilə münasibətləri normallaşdırmaq və ölkənin iqtisadi və siyasi sabitliyini dəstəkləmək məqsədi daşıdığını vurğulamışdı.



### Dəməşqdən bəyanat: "tarixi addım"

Aİ-nin Suriyaya qarşı sanksiyaları 2011-ci ilin mayında vətəndaş müharibəsinin başlamasından sonra tətbiq edilib. Paralel olaraq Əsəd rejimi ilə əlaqəli şəxslərə qarşı səyahət qadağaları və aktivlərin dondurulması kimi fərdi məhdudlaşdırıcı tədbirlər görülüb. Aİ, həmçinin Suriyaya qarşı sektoral sanksiyalar tətbiq edərək, rejimin maliyyə şəbəkəsinin mərkəzində yerləşən sektorları hədəfə alıb. Bu çərçivədə xam neft və neft məhsullarının idxalı, həm hərbi, həm də mülki məqsədlər üçün istifadə oluna bilən malların, bəzi rabitə vasitələrinin ixracına məhdudiyyət qoyulub. Sanksiyalar müəyyən təşəbbüslərin və infrastruktur layihələrinin maliyyələşdirilməsini də əhatə edirdi, paralel olaraq həm də nəqliyyat sektorunu özündə ehtiva edirdi. Rejimin devrilməsinin ardından 24 fevral 2025-ci ildə Aİ Suriyaya qarşı bankçılıq, enerji və nəqliyyat kimi sektorları hədəf alan sanksiyaları "dayandırmaq" qərarına gəldiyini açıqlayaraq bu mövzuda ilk addımı atmışdı.

Bu arada Suriya Xarici İşlər Nazirliyi Aİ-nin Suriyaya qarşı iqtisadi sanksiyaları ləğv etmək qərarını "tarixi addım" kimi qiymətləndirib və bu qərarı alqışlayıb. Xarici İşlər Nazirliyinin yazılı açıqlamasında, Bəşar Əsəd rejimi dövründə tətbiq edilən bütün iqtisadi sanksiyaların ləğvi qərarının "Suriya-Avropa münasibətlərində yeni dövrün qapısını açdığı" bildirilib. "Bu addım Aİ-nin həm hüquqi, həm də diplomatik baxımdan konstruktiv əməkdaşlığı, Suriyanın sabitlik, insan haqları və iqtisadi inkişafa əsaslanan gələcəyə keçidini dəstəklədiyini nümayiş etdirir", - deyə bəyanatda bildirilir. Bəyanatda, həmçinin Suriya hökumətinin yeni dövrdə Avropa şirkətləri və investorları ilə əməkdaşlığı gücləndirməyə hazır olduğu qeyd olunur, iqtisadi canlanma və davamlı inkişafı dəstəkləmək üçün uyğun mühitin hazırlanacağı vurğulanır.

### Suriya gündəmi: son 10 gündə iki toplantı...

Qeyd edildiyi kimi, son dövrlərdə Suriya ilə bağlı atılan addımlar Yaxın şərqdə yeni siyasi-iqtisadi situasiyaya zəmin formalaşdırıb. Xüsusilə, ötən günlər ərzində Suriya, ABŞ və Türkiyə rəsmilərinin Antalyada və ABŞ-da keçirdiyi görüşlər bunu deməyə əsas verir. Antalyada NATO Xarici İşlər Nazirlərinin qeyri-rəsmi toplantısı çərçivəsində baş tutan Türkiyə, Suriya və ABŞ nümayəndələrinin üçtərəfli görüşünün ən mühüm prioritetlərindən biri Suriyada davam edən qeyri-sabit vəziyyətin aradan qaldırılması və ölkədə siyasi keçidə şərait yaradan mühitin formalaşdırılması oldu. Tərəflər BMT-nin 2254 saylı qətnaməsi əsasında Suriyada inklüziv və davamlı siyasi həllin zəruriliyini vurğulayıblar.

Eyni zamanda, Suriyanın şimalındakı bəzi silahlı qruplaşmalarla bağlı mühüm fikir mülahizələri aparılıb, qaçqınların geri qayıdışı müzakirə olunub.

Vaşinqtonda keçirilən görüşə gəldikdə isə ABŞ Dövlət Departamentinin sözçüsü Tammi Brus bununla bağlı yaydığı açıqlamada bildirib ki, ABŞ-ı Dövlət katibinin müavini Kristofer Landau, Türkiyəni isə xarici işlər nazirinin müavini Nuh Yılmaz təmsil edib. Landau ABŞ və Türkiyə arasındakı güclü ikitərəfli əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu və iki ölkənin sülh, ticarət kimi ortaq məqsədlər üzrə əməkdaşlığı genişləndirdiyini vurğulayıb. Görüşdə Prezident Donald Trampın göstərişi ilə tətbiq olunan sanksiyaların ləğv edilməsi, terrorizmin bütün formaları, eləcə də təzahürləri ilə mübarizə də daxil olmaqla, Suriyaya dair ortaq prioritetlər müzakirə olunub. Görüşlə bağlı Türkiyə ilə ABŞ-ın Suriya İşçi Qrupu ilə bağlı birgə bəyanatında isə vurğulanır ki, Türkiyə ilə ABŞ, sabit, ölkə daxilində və qonşu coğrafiyalarla barışıq bir Suriya baxışında həmfikirdirlər. Bu baxış ölkəsindən didərgin düşmüş milyonlarla suriyalının evlərinə qayıtmasına da şərait yaradacaq. Türkiyə və ABŞ Suriyanın ərazi bütövlüyünün qorunmasının vacibliyini bir daha təsdiq edirlər. Terror təşkilatlarına sığınacaq verməyən, sabit və birliyini qoruyan bir Suriya, regional təhlükəsizlik və rifaha töhfə verəcək.

**P.İSMAYILOV**

# Ermənistan dilemma qarşısında..

## Ya sülh imzalayıb faktiki müstəqillik əldə etməli, ya da...

### İrəvanda seçkiqabağı revanşistlərin "düyməsi"nə basıldı

Cənubi Qafqazda sabitlik, sülh və inkişaf dövrü formalaşdıran Azərbaycan son 5 ildə bu istiqamətdə fundamental addımlarla yadda qalıb. Qalib ölkə olmasına baxmayaraq, Azərbaycan 2022-ci ildən etibarən sülh təşəbbüsləri irəli sürməkdədir - son iki ildə isə bu təşəbbüslər mühüm nəticələr verməkdədir. Artıq sülh sənədinin bütün müddəaları tam razılaşdırılıb - 17 bənd üzrə sənəd hazırdır. Bundan başqa,  ötən ilin aprelində 13 kilometrlik ərazidə delimitasiya və demarkasiya işləri həyata keçirildi və beləliklə, prosesə start verildi - Azərbaycanın 4 kəndi boşaldıldı. Artıq sülh üçün cəmi "iki" addım qalıb: birinci "addım" Ermənistan Konstitusiyasının dəyişilməsi, ölkəmizə qarşı qondarma, əsassız ərazi iddialarının aradan qaldırılması, ikinci "addım" isə rəsmi İrəvanın ATƏT-in fəaliyyətsiz Minsk Qrupunun ləğvi ilə bağlı müraciətidir. Qeyd edək ki, Ermənistanın siyasi rəhbərliyi zaman-zaman yeni Konstitusiya layihəsinin hazırlanması ilə bağlı açıqlamalar veriblər, eyni zamanda, ATƏT-in Minsk Qrupunun ləğvi ilə bağlı müraciət haqqında danışıblar. Amma bütün hallarda "oxlar" 2026-cı ilə tuşlanır. Ermənistan siyasi rəhbərliyinin məntiqinə əsaslanılsa, gələn il üçün nəzərdə tutulan parlament seçkiləri həm də sülh üçün əsaslı addımların atılmasına zəmin yaradacaq.

### "Qərb" yolu, yoxsa Fransanın "əlaltısı"...

Amma gələn ilin parlament seçkiləri heç də sabit məcrada inkişaf etməyə bilər - ölkədə baş verənlər onu göstərir ki, Ermənistandakı siyasi böhran hələ də tam sona çatmayıb. Özünün müstəqil siyasi xətti olmayan İrəvan hələ də "seçim" axtarışındadır - amma bu seçkinin nəticəsini deyəsən, heç də "seçicilər" müəyyənləşdirməyəcək.

Hazırda ölkədə iki bir-birinə "zidd siyasi qütblər" formalaşıb - hakimiyyətin timsalında "qərbpərəst" adlandırılan qrup və köhnə komandanın fonunda "revanşist" adlanan qüvvələr. Birincilərin son illərdə apardığı siyasət sırf "Qərbə inteqrasiya" adı altında təbliğ olunsa da, əslində, fərqli statusla izah edilir:

- "Qərb" adı altında özünü Fransanın "əlaltısı" kimi aparan hazırkı siyasi rəhbərlik məhz Parisin diktəsi ilə hərəkət edir;
- Bayden-Blinken administrasiyasının qeyri-adekvat, antisülh siyasətinə "baş əyərək" ötən il ərzində bölgədə siyasi sabitliyin formalaşmasına qarşı cəbhə almışdı;
- Aİ-nin "müşahidə missiyası" adı altında regionda fərqli maraqların hərəkətlənməsini təmin edirdi.

Amma bununla belə, sülhlə bağlı fikirləri və son situasiya hazırkı hakim komandanı "özünə" gətirmiş kimi görünür - artıq, ABŞ-ın keçmiş administrasiyası ilə bağlanan "xartiya" xatırlanmır, Azərbaycanın qətiyyəti sayəsində Fransa bölgəyə təsir imkanlarını tam itirib, Aİ "missiyası"nın gələcəyi isə demək olar ki, həll edilib.

### Revanşizm xəstəliyinin daşıyıcıları...

Amma eyni sözləri qarşı düşərgə - revanşistlər haqqında demək mümkün deyil. Açıq aşkar fərqli güclərin təlimatları əsasında özünün hərəkət trayektoriyasını quran revanşistlərin lideri qismində isə məqsədli şəkildə "diriltilən" Ermənistanın ikinci prezidenti Robert Köçəryandır. Son dövrlərdə bu qüvvələrin aktivləşməsi nəzərə çarpır ki, bu da əbəs yerə deyil.

Vurğulayaq ki, revanşist cəbhənin özü də bircins deyil - buraya Sarkisyan-Köçəryan qruplaşması, Ter-Petrosyan komandası və kilsə daxildir. Bu qrupların hərəsi ayrı-ayrılıqda fərqli baxışlara malik olsalar da, özlərinin bağlı olduqları ünvan eynidir. Bu baxımdan, onların bir "işarə"  ilə birləşmə perspektivi hər zaman açıqdır. Son dövrlərdə sülh prosesinin kifayət qədər irəliləməsi, xüsusilə, Tiranada baş nazir Paşinyan ilə Prezident İlham Əliyevin fikir mübadiləsi aparması onları yenidən fəallaşmağa məcbur edib. Bu mənada, Köçəryanın fəallığı daha çox diqqəti cəlb edir - o, yenidən gündəmə gəlmək üçün, açıqlamalar verir, sülhü gözdən salmağa çalışır, insanları səhv yola sürükləyir.



### Bu dəfə oğul Köçəryan iş başındadır

Paralel olaraq, Köçəryan özünün və ya ortağı Sarkisyanın siyasi ambisiyalarını həyata keçirmək imkanında olmadıqlarını anlayır. Onların hakimiyyəti dövründə baş verənlərdən sonra cəmiyyətin səsini qazanmaq mümkün deyil. Məhz bu baxımdan, "revanşist" komanda və havadarları yeni ssenari üzərində işləyir. Vətən müharibəsindən sonrakı müddətdə xüsusilə, antiterror tədbirlərindən sonra Paşinyana qarşı təbliğatda daha çox oğlunun siyasi siluetindən istifadə edən Köçəryan yenidən bu vasitəyə əl atır. Məsələn, bir neçə gün öncə Ermənistan parlamentində vitse-spiker Akop Arşakyan ilə Levon Köçəryan arasında mübahisə baş verib - münaqişə hətta deputatlar arasında davaya çevrilib. Robert Köçəryanın oğlu çıxışı zamanı Nikol Paşinyan və Alen Simonyanın fikirlərini xatırladıb və onları təhqir kimi qiymətləndirib. "Qoy Alen Simonyan ehtiyatlı olsun və bilsin ki, mən onu yerindən tullayanda bu, ona çox ağrılı olacaq", - deyə L. Köçəryan bildirib. Köçəryanın sözlərinə qəzəblənən Arşakyan emosiyalarını cilovlaya bilməyib. "Ey, Levon, yerini bil! Otur yerində və sənə deyilənə qulaq as! Barmağını mənə tərəf uzatma!" - deyə o qışqırıb. Arşakyan daha sonra Köçəryanı zaldan qovacağı ilə hədələyərək onun yerinə oturmasını tələb edib.

Göründüyü kimi, artıq seçkilərə bir ildən də az müddət qaldığı bir zamanda vəziyyət tam radikal hal alıb. Levonun məhz atasının havadarlarının diqtəsi ilə bu sözləri bildirməsi təsadüfi deyil. Demək ki, artıq "düyməyə" basılıb və Ermənistan qısa zamanda özünün gələcəyi ilə bağlı soyuq başla qərar verməsə, onları heç də yaxşı perspektiv gözləmir.

### Sülh müstəqillik vəd edir...

Yaranan paradoksal vəziyyət isə bir həqiqəti ortaya qoyur - Ermənistanın özünün siyasi yolu, istiqaməti və hədəfləri mövcud deyil. Bir gün Şimala, bir gün Qərbə yarınmaq üçün "hərəkətə" keçənlər isə yalnız lokal və korporativ maraqlar üçün səfərbər olur. Halbuki, Azərbaycanın təklif etdiyi yol - sülhün imzalanması, Ermənistan üçün həm də siyasi müstəqillik vəd edir. Bu ölkənin vassalıqdan xilas olaraq özü üçün yeni bir inkişaf trayektoriyası formalaşdırması, nəhayət, region üçün təhdid yaratmaması üçün sülh sənədi imzalanmalıdır. Əks halda, müstəqil yolu, müstəqil siyasəti olmayan bu dövlət bütövlükdə, Cənubi Qafqazın inkişafına ziyan vura bilər.

**SADİQ**

# Kim seçiləcək?

## Cənubi Koreya prezident seçkilərinə hazırlaşır...

İyunun 3-də Cənubi Koreyada prezident seçkiləri keçiriləcək. Dövlət başçısı vəzifəsinə yeddi nəfərin namizədliyi qeydiyyata alınmışdı. Namizədlər "Toburo" Demokratik Partiyasının keçmiş sədri Li Cje Myon, hakim "Vətəndaş gücü" partiyasından Kim Mun Su, İslahatlar Partiyasının rəhbəri Li Çjun Sok, Demokratik Fəhlə Partiyasından Kvon Yon Quk, Azadlıq və Birlik Partiyasından Ku Çju Va, həmçinin iki bitərəf namizəd Hvan Qyo An və Son Çjin Hodur. Lakin sırağagün namizədlərdən biri - ultra-sağçı Azadlıq və Birlik Partiyasının həmsədri Ku Cu Va namizədliyini geri götürüb - o, mühafizəkar "Vətəndaş Gücü" partiyasının nümayəndəsi Kim Mun Sunu dəstəkləyəcəyini bəyan edib. Xatırladaq ki, aprelin 4-də Konstitusiya Məhkəməsi tərəfindən sabiq prezident Yun Sok Yol vəzifəsindən kənarlaşdırıldıqdan sonra ölkədə növbədənkənar prezident seçkiləri elan edilib.

### Namizədlərin ideoloji fərqləri

Namizədliyi "Toburo" Demokratik Partiyası tərəfindən irəli sürülən Li Jae-myung 2022-ci ildən Koreya Respublikası Milli Assambleyasının deputatıdır. Ölkədə tanınmış hüquqşünas və siyasi xadim olan Li Jae-myung 2022-ci ildən 2025-ci ilə qədər Koreya Demokratik Partiyasının lideri olub. L.Jae-myung Chung-Ang Universitetində hüquq ixtisası üzrə ali təhsil alıb və karyerasına insan və işçi hüquqları üzrə mütəxəssis kimi başlayıb. 2005-ci ildən aktiv siyasətlə məşğul olmağa başlayan L.Jae-myung 2010-cu ildə Seongnam şəhərinin meri seçilib. L.Jae-myung liberal-demokratik iqtisadi siyasətin tərəfdarı və Qərb dəyərlərinin təbliğatçısıdır. O, ABŞ - la müttəfiqlik münasibətlərinə xüsusi əhəmiyyət verən siyasətçidir.

Hakim "Vətəndaş gücü" partiyasının namizədi Kim Mun Su 2024-2025 - ci illərdə ölkənin məşğulluq və əmək naziri vəzifəsində çalışıb. O, 1994-cü ildə Seul Milli Universitetini bitirib. K.Min Su keçən əsrin 70-ci illərində işçi hüquqlarını müdafiə edən fəallardan biri olub. Dəfələrlə, öz fəaliyyətinə görə, təqiblərə məruz qalıb və həbs olunub. 1990-cı ildə K.Mun Su Xalq Partiyasının yaradılmasında iştirak edib və həmin partiyanın Əmək Münasibətləri Komitəsinin sədri vəzifəsində çalışıb. K.Mun Su da sağ-mərkəzçi - mühafizəkar-liberal baxışlarına malik olan siyasətçidir.

İslahatlar Partiyasının rəhbəri Li Çjun Sok Hadvard Universitetinin məzunudur. O, təhsilini başa vurub ölkəsinə qayıtdıqdan sonra aktiv siyasətlə məşğul olmağa başlayıb. Müxtəlif dövlət orqanlarında çalışıb. Li Çjun Sok mühafizəkar mövqeyi ilə tanınan siyasətçidir - o, feminizm dəyərlərinin qatı tənqidçisidir. Xarici siyasətdə ABŞ və Qərblə münasibətlərin dərinləşdirilməsinin tərəfdarıdır.

Demokratik Fəhlə Partiyasının namizədi Kvon Yon Quk sol yönümlü siyasətçidir.

Müstəqil namizəd Hvan Qyo An 2015-2016-cı illərdə Koreya Respublikasının baş nazir və 2016-cı ildən 2017-ci ilə qədər ölkənin müvəqqəti prezidenti vəzifəsini icra edib. 2019-cu ilin yanvarında Koreya Azadlıq Partiyasına qoşulub və 2019-cu ildə isə partiyanın lideri seçilib. Lakin bir müddət sonra partiya sədrliyindən istefa verib. H.Qyo An Sungkyunkvan Universitetində hüquq fakultəsini bitirib. İdeoloji cəhətdən liberal-demokratiyaya yaxındır.



### 6 namizəd qaldı...

Məsələ ilə bağlı Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin Avrasiya və Şərqi Asiya regionu üzrə tədqiqatçısı Vüsal Quliyev "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, son sorğulara görə, iki namizəd - Li Jaemyung, yaxud Li Çjun Sokun prezident seçilməsi ehtimalı böyükdür. "Hazırda Cənubi Koreyada siyasi müstəvidə ciddi hadisələr baş verir. Prezident Yun Sok Yolun 2024-cü ilin dekabrında hərbi vəziyyət elan etməsi ölkədə siyasi böhrana səbəb oldu və nəticədə 2025-ci ilin aprelində impiçmentlə vəzifəsindən uzaqlaşdırıldı. Konstitusiyaya əsasən, 60 gün ərzində yeni prezident seçkiləri keçirilməlidir və bu səbəbdən növbədənkənar prezident seçkiləri 3 iyun 2025-ci il tarixinə təyin edilib. Prezidentlik kürsüsü uğrunda hal-hazırda 6 namizəd arasında mübarizə gedir. Kəskin mübarizə şəraitində iki namizədin adı ön plana çıxır. Demokratik Partiyanın namizədi və əsas favorit olan Li Jae-myung, iqtisadi bərpa, süni intellekt və yaşlı əhali üçün sosial dəstək proqramları vəd edir. Xarici siyasətdə ABŞ və Yaponiya ilə əməkdaşlığı davam etdirməklə yanaşı, Çin və Rusiya ilə balanslı münasibətlər qurmağı hədəfləyir. "Vətəndaş Gücü" Partiyasının namizədi və keçmiş Əmək naziri olmuş Kim Moon Su, ABŞ ilə hərbi əməkdaşlığın gücləndirilməsi və ölkəsinin dəniz sularında ABŞ-ın nüvə sualtı qayıqlarının yerləşdirilməsini təklif edir. Partiya daxilindəki mübahisələr və keçmiş prezident Yoonun dəstəyi ilə bağlı tənqidlərə baxmayaraq, Kim seçkilərdə iştirak edir . Ola bilsin ki, seçkilərin iki turu keçirilsin. Böyük ehtimalla, bu iki namizəddən biri Koreyanın prezidenti seçiləcək".

*Yunis ABDULLAYEV*

# QƏDİM İRƏVANIN "QIZIL ŞƏFƏQ"İ

*əvvəli ötən sayımızda*

"Qızıl şəfəq" qəzetinin meydana çıxması, üzləşdiyi problemlər, qazandığı uğurlar, müxbirlərin fəaliyyəti və onların qarşısında duran vəzifələr haqqında qəzetin 1930-cu il, 129-cu nömrəsində bir neçə material çap olunmuşdur. Bu baxımdan qəzetin 5 illik həmin yubiley nömrəsi xüsusi əhəmiyyət kəsb edir. Həmin nömrədə qəzetin məsul redaktoru Rza Vəlibəyovun "Qızıl şəfəq" qəzetinin 5 illik yubileyi münasibətilə yazdığı "5 il sosializm quruluşu" uğrunda" adlı məqaləsində qəzetin qazandığı uğurlardan söz açır və bu uğurları qoruyub saxlamaq, daha da möhkəmləndirmək üçün mətbu orqanın lik çıxacağı barədə məlumat vermişdi. Qəzet özünün gündəlik çıxacağı haqqında elan versə də, buna nail ola bilməmişdir. "Qızıl şəfəq" qəzeti 1 yanvar 1932-ci il tarixdən həftədə 4 dəfə işıq üzü görmüşdür. Qəzet hələ 1930-cu illərdən tirajının artaraq, 10 minə yüksəlməsini təmin etməyi qarşısına hədəf kimi qoysa da, 1934-cü ildə özünün 10 illik yubileyi və mininci nömrəsinin çapdan çıxmasını böyük təntənə ilə qeyd etdiyi bir vaxtda hələ də abunəçilərinin sayı 7 mini ötməmişdi. Bunun da ən başlıca səbəblərindən biri yerlərdə mətbuat yayımı şöbələrinə daha çox ermənilərin təyin edilməsi idi. Araşdırmalardan aydın olur ki, onlar qəzetin abunə haqlarını belə mənimsəyir, çatdırılması üçün lazımi nəqliyyat vasitələrinin olmaması idisə, digər tərəfdən isə çox vaxt mətbuat yayımı şöbələri tərəfindən qəzetin abunə haqlarının mənimsənilməsi idi. Bu səbəbdən də bir tərəfdən qəzetin daha geniş coğrafiyada yayılmasını təmin etmək mümkün olmurdu, digər tərəfdən isə erməni şovinist dairələrinin müvafiq qurumları qərəzli şəkildə qəzetin fəaliyyətinə maneçilik törədirdilər. Halbuki qəzetin ahəngdar fəaliyyətini şərtləndirən ən başlıca cəhət onun müstəqil binaya malik olması və çapı üçün lazımi mətbəənin olması vacib şərtdir. Qəzetin redaksiyasının tez-tez ünvanlarının dəyişdirilməsi də onun ahəngdar fəaliyyətini əngəlləyirdi. 1933-cü ildə, təkcə bir il ər-



**Mikayıl Müşfiq, Məmməd Səid Ordubadi, Yusif bəy Vəzirov və Mehdi Hüseyn "Qızıl şəfəq" qəzeti redaksiyasında, İrəvan, 1935**

yaradıcı heyətinin müxbirlərinin, oxucularının köməyinə arxalandığını bildirirdi: "Qızıl şəfəq" qəzetinin 5 illik yubileyini keçirdikdə bu beş il ərzində gördüyü işlər danılmazdır. Ermənistanda türk dilində çıxan yalnız "Qızıl şəfəq" qəzeti olduğu üçün Ermənistanda türk zəhmətkeşləri arasında aparılacaq işlərin kütlə arasında yayılması sahəsində az iş görməmişdir. Yeni türk əlifbası sahəsində "Qızıl şəfəq"in ifa etdiyi rolu unutmaq olmaz. "Qızıl şəfəq" qəzeti müxbir kütləsinin sıralarını bir daha öz ətrafında birləşdirərək var qüvvələri ilə irəliləməkdədir".

Qəzetin redaksiyasına 5 illik yubileyi münasibəti ilə Bakıda çıxan "Kommunist" (Azərbaycan dilində), "Gənc işçi", "Kəndli" qəzeti, "Şərq qapısı" (Naxçıvan) və bir çox qəzetlər təbrik məktubu göndərmiş, yaradıcı kollektivə uğurlar arzulamışlar. Bakıda çıxan "Molla Nəsrəddin" satirik jurnalı da "Qızıl şəfəq" qəzetini beş illik yubileyi münasibəti ilə təbrik etmişdi. Təbrikdə deyilir: "Xalqımızın maarif və mədəniyyəti yolunda, ölkəmizdə kollektivləşmə və sosializm quruluşu cəbhəsində mümkün olduğu qədər çalışıb, 5 il mütəmadiyən mübarizə edib, 6-cı ilə qədəm qoymaqda olan rəfiqimiz "Qızıl şəfəq" qəzetəsinin 5 illik bayramını təbrik edərək, bundan sonra gedəcəyi yollarda daha böyük müvəffəqiyyətlərə nail olmasını arzu edirik".

Qəzetin beş illik yubileyi münasibətilə buraxılan xüsusi nömrədə Rza Vəlibəyovun "10 ildə", Murtuza Muradovun "Qəzetimizin kütləvi işləri və müxbirlər hərəkatı", Əbülfət İbrahimin "10 illik tərəqqimizdən", Cəfər Vəlibəyovun "Mən necə müxbir oldum", Məhərrəm Məhərrəmovun "Qızıl şəfəq"ə salam" kimi məqalə, şeir, xatirə və təbriklərdə "Qızıl şəfəq" qəzetinin yaranması və beş ildə keçdiyi inkişaf yolu haqqında çox dəyərli məlumatlar vardır. "Qızıl şəfəq" qəzetinin beş illik yubileyinə həsr olunmuş nömrəsində bu mətbu orqanın yaranması və nəşrində fəal iştirak edən məsul redaktorların, müxbirləri və texniki heyətin fotoşəkillərinin verilməsi həmin illərdə qəzetin təşəkkülü və inkişaf yolu haqqında bütöv təsəvvür yaradır.

26 noyabr 1929-cu il 96-cı nömrəsindən 21 yanvar 1930-cu il 6-cı nömrəsinə kimi həftədə 2 dəfə 4 səhifə, 24 yanvar1930-cu il 7-ci nömrəsindən 1931-ci il 31 dekabr tarixinə kimi həftədə 3 dəfə 4 səhifədən ibarət çıxmışdır. Qəzetin həftədə 3 dəfə çıxması nəticəsində bir sıra mühüm sahələr haqqında məlumat ya gec dərc edilirdi, yaxud da işıqlandırılmırdı. Qəzet özünün 22 dekabr 1931-ci il sayında 1932-ci il yanvar ayının 1-dən gündəmişlər. Hətta qəzet bu barədə kəskin münbasibətini bildirərək yazırdı: "Soyuz Peçatın məsul işçilərinin bəziləri belə siması̇zlıq və işdə məsuliyyətsizlikləri aradan qaldırmaq əvəzində onların özləri belə bu məsələni genişləndirirlər. Qəzetin vaxtında abunəçilərə çatmaması və tirajının artmaması işinə özləri səbəb olur. Türk mətbuatının yayılmasına fikir verilmir. Qəribyan öz aparatında olan bürokratları və süründürmə ilə vaxtlarını boş nağılla keçirən adamları öz aparatından təmizləməli və "Qızıl şəfəq" qəzetinin yayılmasına maneçilik törədən hər cür səbəbləri tezliklə aradan qaldırmalıdır".

Qəzetin məsul redaktorlarının tez-tez dəyişdirilməsi də bu mətbu orqanın ahəngdar fəaliyyətinə öz təsirini göstərməyə bilməzdi. 1931-ci ilin sentyabr ayından 1932-ci ilin 17 avqust tarixinə kimi Əli Tağızadə qəzetin məsul redaktoru olmuşdur. 19 avqust 1932-ci il tarixdən 21 sentyabr 1932-ci il tarixinə kimi isə qəzetin məsul redaktoru əvəzi Mirzə Mirzəyev, 23 sentyabr 1932-ci il 121-ci nömrəsindən 23 dekabr 1932-ci il tarixli 155-ci nömrəsinə kimi isə qəzetin məsul redaktoru əvəzi Hüseyn Mamedov olmuşdur. "Qızıl şəfəq" qəzetinin tirajının artırılması və günün ən həlli vacib məsələsi kimi bu mətbu orqanın qarşısında dururdu. 1932-ci ildən qəzetin gündəlik nəşr edilməsi və tirajının 12-15 min nüsxəyə çatdırılması üçün bu mətbu orqanın əməkdaşları Hüseyn Mamedov Qəmərli, Əbülfət İbrahim Ağbaba, Əziz Nağıyev Allahverdi, Tahar Abbasov Üçmiədzin, Mirzə Mirzəyev, Fərman Əzimov, Yunis Ələkbərov Vedi, Mamo Əsədov İrəvan, Əbdüləzim Basarkeçər rayonlarına ezam edilmişdilər. Qəzetin bölgələr üzrə tirajının artım miqdarı aşağıdakı kimi müəyyənləşdirilmişdir: Qəmərli 1000, Ağbaba 200, Allahverdi 1500, Üçmiədzin 800, Vedi 2500, İrəvan 4000, Basarkeçər 2000. Qəzetin tirajının cəmi 10800-ə çatdırılması barədə verilən məlumatların gerçəkləşdirilməsi bu mətbu orqanın tirajı barədə təsəvvürümüzü bir qədər məhdudlaşdırdı. Araşdırmalardan aydın olur ki, erməni dilində çıxan "Xorhurtayın Hayastan" qəzetinin abunəçilərinin sayı 50 min, "Avanqard" qəzetinin abunəçilərinin sayı 25 min təşkil etdiyi halda, Azərbaycan dilində yeganə mərkəzi mətbuat orqanı olan "Qızıl şəfəq" qəzetinin abunəçilərinin sayı 1932-ci ildə çox çətinliklə 5 minə yüksəlmişdi. Qəzetin tirajının artmasına əngəl törədən ən başlıca səbəblərdən biri bu mətbu orqanın Amasiya, Qafan, Meğri, Dilican, Gümrü, Qarakilsə, Ordubad və digər uzaq bölgələrdən olan abunəçilərinə vaxtı-vaxtında zində qəzet 3 dəfə qəzet müxtəlif ünvanlara köçürülmüşdür. Əlbəttə ki, bu da qəzetin redaksiya heyətinin və onun məsul redaktoru Mustafa Hüseynovun haqlı etirazına səbəb olmuşdu.

1933-cü il 23 may tarixli 58-ci nömrəsindən yenə qəzetin məsul redaktoru Mustafa Hüseynov təyin edilmişdir. Apardığımız araşdırmalardan aydın olur ki, Mustafa Hüseynov müxtəlif vaxtlarda 5 dəfə qəzetin məsul redaktoru kimi dəyişdirilmişdir. 14 sentyabr 1934-cü il tarixdən - 204-cü nömrəsindən 20 oktyabr 1934-cü il tarixə - 233-cü nömrəsinə kimi qəzetin müvəqqəti redaktoru Həbib Məhəmmədzadə təyin olunmuşdur. Həmin illərdə bəzən qəzetin redaktor qrafası yerində "Heyyəti-təhririyyə" yazılırdı.

21 oktyabr 1934-cü il tarixdən qəzetin məsul redaktoru vəzifəsinə yenidən Mustafa Hüseynov təyin edilmişdir. Onun iradəsi və fədakarlığı sayəsində "Qızıl şəfəq" qəzeti 30 dekabr 1934-cü ildən - 286-cı nömrəsindən etibarən gündəlik kiçik formatda nəşr edilməyə başlamışdır.

1934-cü ildə qəzetin 1000-ci nömrəsinin çapdan çıxması və 10 illiyi münasibəti ilə qəzetin redaktoru Mustafa Hüseynov bu mətbu orqanın keçdiyi yol haqqında geniş məqalə ilə çıxış edərək yazırdı: "Qızıl şəfəq"in 10 il ərzində gördüyü işlər inkarolunmaz müvəffəqiyyətlərdir". Həmin dövrdə qəzetin redaktoru Mustafa Hüseynov, məsul katibi isə şair, tərcüməçi Əbülfət İbrahim idi.

1934-cü il aprel ayının 25-də qəzetin 10 illik yubileyi münasibəti ilə İrəvanda Mədəniyyət evində təntənəli toplantı keçirilmişdir. Toplantının rəsmi hissəsi qurtardıqdan sonra bədii hissəsi İrəvanda fəaliyyət göstərən Şərq musiqi dəstəsinin və İrəvanda Azərbaycan teatrının aktyorlarının iştirakı ilə başa çatmışdır.

davamı növbəti sayımızda



*Cəlal Allahverdiyev,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*dosent*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Strateji əhəmiyyətə malik Sərəncam

## Mətbuatımız dövlətin diqqətindədir...

2025-ci il Azərbaycan mətbuatı tarixində ən əlamətdar illərdən biridir. Bu il milli mətbuatımızın 150 ili tamam olur.

Məlumdur ki, 150 il öncə görkəmli ziyalı, maarifçi-publisist Həsən bəy Zərdabinin Azərbaycan dilində nəşr etdiyi “Əkinçi” qəzeti milli mətbuatımızın ilk nümunəsi və ölkəmizin həyatında mühüm hadisə kimi tarixə düşüb.

Dövlətimiz tərəfindən Azərbaycan mətbuatının inkişafı üçün hər zaman çoxsaylı addımlar atılıb. Ölkəmizdə söz, fikir və özünüifadə azadlığı konstitusion əsasda təsbit edilib, hər bir yazılı və elektron KİV özünün hüquq və azadlıqlarından sərbəst surətdə istifadə edə bilir. Məhz bu amil Azərbaycan mətbuatının inkişafına fundamental töhfələr verməklə yanaşı, sözügedən sahədə əsaslı keyfiyyət dəyişikliklərinin meydana gəlməsini şərtləndirir. Ölkəmizdə KİV-in inkişafı üçün müvafiq qanun və qərarların qəbul olunması mövcud hüquqi əsasları gücləndirir, media təsisatının funksionallığının artmasına səbəb olur.

Xatırladaq ki, Prezident İlham Əliyev aprelin 25-də “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalayıb. Sərəncamda “Əkinçi” qəzetinin milli mətbuatımızın ilk nümunəsi və ölkəmizin həyatında mühüm hadisə kimi tarixə düşdüyü qeyd olunub. Sərəncama əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyi və Azərbaycan Mətbuat Şurası ilə birlikdə 150 illik yubiley tədbirlərinin keçirilməsini təmin edəcək. Nazirlər Kabineti isə yubiley tədbirlərinin maliyyələşdirilməsi ilə bağlı məsələləri həll edəcək.

## Mediamız hər zaman dövlətin himayəsindədir

“Bakı-Xəbər” qəzetinin baş redaktoru Aydın Quliyev “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, Azərbaycan Milli Mətbuatının 150 illiyi ilə bağlı Prezidentin sərəncamı həm də strateji əhəmiyyətə malik olan dövlət sənədidir. Bu bir daha ölkədə medianin inkişafına, dövlətin dəstəyinin artıq fasiləsiz bir institut çevrildiyini göstərir: “Fərmanda geniş miqyaslı tədbirlər nəzərdə tutulur. Bu tədbirlərin miqyası elə tərtib olunub ki, bütün cəmiyyətin, qeyri-hökumət təşkilatlarının, medianın özünün və müxtəlif dövlət strukturlarının bu prosesin içində aktiv subyektlər kimi iştirakı planlaşdırılıb. Prezidentin sərəncamı medianın dövlət himayəsində olduğu kimi əhəmiyyətli bir strateji əhəmiyyətli sosial təzahürü göstərir. Eyni zamanda, hər kəsdə bir inam yaradır ki, Azərbaycan mediası əbədi şəkildə dövlətin himayəsində olacaq. Çünki təcrübə göstərir ki, dövlət himayəsindən məhrum olan media uzun müddət yaşaya bilməz. Hətta yaşadığı müddətdə də güclü ola bilməz”.

## Hər zaman milli mətbuatımızın inkişafını görəcəyik

A.Quliyevin sözlərinə görə, təkcə yubiley illərində Azərbaycan mətbuatına qayğı göstərilmir: “Ölkə başçısı tərəfindən Azərbaycan mətbuatına daim qayğı var. Prezidentin birbaşa rəhbərliyi, diqqəti ilə bugün Azərbaycan mətbuatı 150 il bundan qabaq yaranmış ənənəsini nəinki davam etdirir, hətta bu mətbuatın inkişafında əhəmiyyətli rol oynayır. Hesab edirəm ki, Prezidentin bu sərəncamdan irəli gələn tapşırıqların hamısı yerinə yetiriləcək. Azərbaycan mətbuatının 150-160-170 - 200 illik tarixində də milli mətbuatımızın yaşamasını, inkişafını görəcəyik”.

## Yubileylərin qeyd olunması mühüm rola malikdir

Baş redaktor qeyd edib ki, milli kimliyimizin, düşüncə azadlığımızın formalaşmasında mətbuatın yeri danılmazdır: “Məbuat Azərbaycanda söz və fikir azadlığı, ictimai dialoq və maarifçilik ənənələrini yaşadır. Bu gün Azərbaycan mətbuatı ölkə başçısının diqqət və qayğısı ilə tam əhatə olunub. Təsadüfi deyil ki, Prezidentin milli mətbuatımızın inkişafına dair imzaladığı Sərəncamlar da bu diqqət və qayğının təzahürüdür. Azərbaycan milli mətbuatının yubileylərinin qeyd olunması ölkə həyatında ictimai-siyasi və mədəni hadisə kimi xüsusi yer tutur. Milli mətbuat tarixinin öyrənilməsi və yeni nəsillərə ötürülməsi baxımından belə yubileylərin qeyd olunması mühüm rola malikdir. Prezident İlham Əliyevin imzaladığı Sərəncamlar istər mətbuat tariximizin dərin köklərini, istərsə də müasir medianın inkişafına verilən dövlət dəstəyini əks etdirir. Ölkə başçısının son sərəncamı da milli mətbuatımızın keçdiyi yolu, eləcə də ictimai formalaşmadakı rolunu yüksək qiymətləndirir”.

***Sahib***


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**


# Təbiətlə düzgün davranmalıyıq!

## Biomüxtəlifliyin qorunması hər birimiz üçün vacibdir...

Dünyada cərəyan edən bir çox proseslər təbiətə, xüsusilə biomüxtəlifliyə mühüm təsir göstərir. Son zamanlar yer üzündə bioloji müxtəlifliyin sürətlə azalması problemin daha da aktuallaşmasına səbəb olub. Məlumdur ki, bəzi bitkilər, heyvanlar və meşələr Yer üzündən silinmək təhlükəsi ilə üz-üzədir. Bir milyon flora və fauna növü yox olmağın bir addımlığındadır. Son 20 ildə gərgin səylərə baxmayaraq, planetin biomüxtəlifliyi azalmaqda davam edir və ekoloji tarazlıq sürətlə dəyişir.

Ekoloji sistemin təqribən 60 faizi deqradasiyaya uğrayıb və ya ehtiyatsız istifadə olunur. Bu da biomüxtəlifliyin itirilməsinə və növbəti 50 ildə daha da pisləşə biləcək ağır nəticələrə gətirib çıxara bilər. Planetdə həyatın müxtəlifliyinin qorunması uğrunda mübarizə aparmağın əsas yollarından biri isə nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin qorunması, təbiətə göstərilən qayğıdır.

Yeri gəlmişkən, mayın 22-si Beynəlxalq Biomüxtəliflik Günüdür. Əvvəllər həmin gün dekabrın 29-da qeyd olunurdu. Lakin 2000-ci il dekabrın 20-də BMT-nin Baş Assambleyası tərəfindən 22 may Bioloji müxtəliflik üzrə Konvensiya qəbul olunub və həmin gün Beynəlxalq Bioloji Müxtəliflik Günü elan edilib.

Son hesablamalara görə, təcili tədbirlər görülməsə, 2030-cu ilə qədər biomüxtəlifliyin azalması sürətinin qarşısını almaq məqsədi əldən çıxa bilər. Bu məqsəd 2022-ci ilin dekabrında keçirilən BMT-nin biomüxtəliflik sammitinin əsas mövzularından biri olub.

## Biomüxtəliflik nədir və nə üçün vacibdir?

Biomüxtəliflik Yerdəki həyatın müxtəlifliyi üçün vacibdir. Buraya heyvanlar, bitkilər, göbələklər və bakteriyalar kimi mikroorqanizmlər daxildir. Heyvanlar və bitkilər insanlara yaşamaq üçün lazım olan hər şeyi verir - bunlara şirin su, qida və dərmanlar daxildir.

Ancaq bunun üçün heyvan və bitki müxtəlifliyinin birlikdə işləməsi lazımdır. Bitkilər təbii mühitin sağlamlığı üçün də çox vacibdir. Eyni zamanda bitkilər havanın təmizlənməsi, yüksələn temperaturun sabitləşdirilməsində və iqlim dəyişikliyindən qorunmada əsaslı rol oynayır.



## Biomüxtəlifliyə ən böyük təhlükələr hansılardır?

2001-2021-ci illər arasında Yer kürəsində 437 milyon hektar meşəlik ərazisi azalıb. Yetkin meşələrin formalaşması yüzlərlə, hətta minlərlə il çəkə bilər. Ehtimal edilir ki, bu, biomüxtəlifliyə böyük təzyiq yaradır. Dünya Vəhşi Təbiət Fondu (WWF) Yer kürəsində biomüxtəlifliyin itirildiyini izah edir. İtkilərin ən çox olduğu yerlər Latın Amerikası və Karib hövzəsi hesab edilir. 1970-ci ildən bəri burada heyvanların sayı 94 faizə qədər azalıb. Bu azalmanın ən böyük səbəblərindən biri də onların yaşayış yerlərinin məhv olmasıdır.

Londondakı Təbiət Tarixi Muzeyinin məlumatına görə, Böyük Britaniya Avropada təbii mühitin ən çox tənəzzülə uğradığı ölkələr sırasındadır. Böyük Britaniya 10 faiz azalma ilə qlobal miqyasda geri qalır.

## 2025-ci ilin sonuna qədər...

BMT xəbərdarlıq edir ki, iqlim dəyişikliyinin artan təsirləri ilə mübarizə heyvanlar və bitkilər üçün getdikcə çətinləşir. Paris İqlim Müqaviləsinə görə, qlobal istiləşmə 2 dərəcədən aşağı saxlanılmalı, hədəf isə 1,5 dərəcə olmalı idi. Ümumdünya Meteorologiya Təşkilatının (WMO) hesabatına görə, 2025-ci ilin sonuna qədər dünyanın sənayedən əvvəlki səviyyədən 1,5°C yuxarı istiləşməsi ehtimalı 40 faiz təşkil edəcək.

## Azərbaycanda biomüxtəliflik...

Respublikamız Qafqaz regionunda ən zəngin təbii sərvətlərə malik ölkədir. Bioloji müxtəlifliyinə görə Azərbaycan dünyada özünəməxsus yerlərdən birini tutur. Burada zəngin bitki və heyvan növləri cəmlənib. Müasir Azərbaycan faunası 18000 canlıdan ibarət olub məməlilərin 97 növünü əhatə edir, bunlar 7 dəstəyə, 22 ailəyə və 39 cinsə daxildir. Təkcə onurğalılar faunamızda 700 növlə təmsil olunur. Respublikanın quş faunası 357 növ və yarımnövü əhatə edən 17 dəstəni təmsil edir. Azərbaycanın su hövzələrində balıqların 10 dəstəyə, 16 ailəyə aid olan 100-ə yaxın növ və yarımnövü yaşayır. Azərbaycanın həşəratlar aləmi də son dərəcə zəngin olub 25 minə yaxın növü əhatə edir.

Təbiətin mühafizəsi, ehtiyatların səmərəli istifadəsi, xüsusilə də, unikal növlərin qorunması - milli və bəşəri məsələlərdir. Azərbaycan 2000-ci ildə BMT-nin Baş Assambleyasının biomüxtəliflik üzrə Konvensiyasına qoşulub. Konvensiyaya uyğun olaraq ötən dövr ərzində respublika ərazisində bioloji müxtəlifliyin qorunması ilə bağlı bir sıra tədbirlər həyata keçirilsə də bu sahədə bir sıra problemlər hələ də var. Belə ki, bu gün Xəzərdə biomüxtəlifliyin azalmasında əsas səbəb kimi iqlim dəyişikliyi göstərilir.

Göründüyü kimi, bioloji müxtəliflik dedikdə bütün yaşayış mühitlərində, o cümlədən quruda, dənizdə və digər su ekosistemləri və ekoloji komplekslər də daxil olmaqla, bütün canlı orqanizmlərin növ müxtəlifliyi nəzərdə tutulur. Bu da o deməkdir ki, təbiətdə biomüxtəlifliyin qorunması insanlar üçün daha vacibdir. Ona görə də təbiətlə düzgün davranmalı, onu sevməliyik...

***Yeganə BAYRAMOVA***

# “Qızların STEM-də yüksəlişi” proqramının qalibləri açıqlandı

“Huma Quşu” təhsilə yardım fondu Azercell-in dəstəyi ilə həyata keçirdiyi “Qızların STEM-də yüksəlişi” təqaüd proqramının qaliblərini açıqlayıb. Proqram çərçivəsində 10 tələbə qıza təqaüd təqdim olunub.

Qeyd edək ki, layihə Azercell-in “Həyatı daha dolğun edirik: Qadınlara dəstək proqramı” çərçivəsində qalib gəlmiş sosial təşəbbüslərdən biridir. Təqaüd proqramının ilkin mərhələsində 5 tələbənin dəstəklənməsi nəzərdə tutulsa da, iştirakçıların yüksək bilik və potensialı nəzərə alınaraq “Huma Quşu” Fondu tərəfindən əlavə 5 tələbəyə də təqaüd ayrılıb. Layihənin əsas məqsədi informasiya texnologiyaları və kommunikasiya sahələrində təhsil alan gənc qızların bilik və bacarıqlarının inkişafına dəstək olmaq, onların bu istiqamətdə karyera imkanlarını genişləndirməkdir.




Qaliblərlə bağlı ətraflı məlumat üçün: https://bit.ly/4kru7Ns

2022-ci ildən fəaliyyət göstərən “Huma Quşu” Təhsilə Yardım Fondu bu günədək 40-dan çox tələbənin təhsilinə dəstək verib. Fond istedadlı gənclərin keyfiyyətli təhsilə çıxış imkanlarını artırmağı hədəfləyir.

“Azercell Telekom” MMC təqaüd qazanan tələbələri təbrik edir, onlara təhsil və karyera yollarında uğurlar arzulayır!

**İdman**

# Formula 1 Azərbaycan Qran-Prisi: tribunalardakı yerlərin sayı 20 mini keçəcək

Formula 1 Qatar Airways Azərbaycan Qran-Prisi 2025-ə hazırlıq işləri davam etdirilir.

AZƏRTAC xəbər verir ki, bu il Bakı Şəhər Halqasında iki əlavə tribunanın quraşdırılması nəzərdə tutulub.

Artıq Bakı Şəhər Halqası ətrafında tribunaların quraşdırılmasına başlanılıb. Həm yerli, həm də xarici azarkeşlər tərəfindən Azərbaycan Qran-Prisinə artan marağı nəzərə alaraq, infrastrukturun genişlənməsi nəticəsində tribunaların tutumu 1500 yer artırılaraq 20 mini keçəcək.




Formula 1 Qatar Airways Azərbaycan Qran-Prisi 2024-ü dörd gün ərzində tribunalardan canlı olaraq 76 mindən çox azarkeş izləyib.

Hazırlıq işləri ilə əlaqədar olaraq Dənizkənarı Bulvarın bəzi hissələrində müvəqqəti məhdudiyyətlərin tətbiq olunması nəzərdə tutulur. Paytaxt sakinlərindən və qonaqlardan bu müddət ərzində anlayış göstərmələri xahiş olunur.

Qeyd edək ki, Formula 1 Qatar Airways Azərbaycan Qran-Prisi 2025 sentyabrın 19-21-də keçiriləcək.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4955**
**Sifariş: 1054**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova